Səs

№ 193 (6393) **22 oktyabr** 2021-ci il. **Qiyməti 40 qəpik**

Perulu şərhçi: "Ermənilərin tamahkarlığı iki xalq arasında sülhə mane olur"

14

"Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir!"

"Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı. Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu"

2

XİN: "Azərbaycanlılar revanşist yönümlü qruplar tərəfindən etnik zəmində hədəfə alınır"

9

YAP və AK Parti arasında növbəti videokonfrans keçiriləcək

Oktyabrın 26-da Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası arasında videokonfrans keçiriləcək. Bu barədə YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu gün Yeni...

7

Bu gün ömrü dastana dönmüş Xudayar Yusifzadənin şəhadətə qovuşmasından bir il ötür

11

12

Avtomobili qadınlar, yoxsa kişilər yaxşı idarə edir?

Ən ucuz bal bu bazarda satılır - Yarmarkadan

Canlı Yayım

Ronaldodan emosional paylaşım: Biz sağıq! Biz insanıq!

"Mançester Yunayted"in ulduz futbolçusu Kriştiano Ronaldo UEFA Çempionlar Liqasının qrup mərhələsinin 3-cü turunda evdə "Atalanta"ya qalib...

16

AÇIQLAMA:

"Müxalifət xalqın qəzəbindən qorxmalıdır"

14

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması ölkə iqtisadiyyatına nə qazandıracaq?

15

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası ölkəmizin iqtisadi inkişafına və siyasi nüfuzunun...

14 yaşlı qatil 5 yaşlı uşağı öldürüb

16

Böyük Britaniyanın Uels şəhərində 14 yaşlı bir uşaq çay kənarında cəsəd tapıldıqdan sonra günahkar elan...

"Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir!"

"Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı. Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu"

Bu gün Azərbaycanın işğaldan azad olunan ərazilər nəhəng tikinti meydanına çevrilib. Aparılan abadlıq-quruculuq işləri, yaradılan infrastruktur, yeni binaların tikintisi, dini-tarixi abidələrimizin təmir və bərpası, beynəlxalq hava limanlarının tikintisi, həqiqətən də, bu ərazilərdə irimiqyaslı layihələrin icrasına start verildiyini təsdiqləmiş olur. Qısa zamanda işğaldan azad olunan ərazilərimiz Azərbaycanın ən inkişaf etmiş məkanına çevriləcək. Dövlət başçısının hər dəfə bu ərazilərə səfəri çərçivəsində görülən işlərlə tanışlıq, eləcə də bu ərazilərin dirçəldilməsi məqsədi ilə yeni yerlərin təməlinin qoyulması, əlbəttə ki, hər bir insanda bu ərazilərdə yeni qaynar həyatın tezliklə başlanılacağına əminlik yaradır. Bildiyimiz kimi, oktyabrın 20-si Zəngilan rayonunun işğaldan azad olunmasından bir il ötdü. Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Zəngilan rayonuna səfər ediblər. Səfər çərçivəsində dövlət başçısı bu ərazidə aparılan işlərlə tanış olub, görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən dövlət başçısı uzun fasilədən sonra - 27 il erməni işğalından sonra artıq Zəngilan Vətənə qayıtdı, qaytardıq, - deyərək, Şanlı Ordumuzun qəhrəmanlıq göstərərək, Zəngilan şəhərini və bir neçə kəndi məhz düz bir il bundan əvvəl işğalçılardan azad etdiyini bildirib.

> "Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq. Birinci mərhələdə Ermənistan tərəfi müqavimət göstərsə də, indi özləri artıq buna razılaşıblar"

"ŞANLI ORDUMUZ DÜZ BİR İL BUNDAN ƏVVƏL AZƏRBAYCAN BAYRAĞINI ZƏNGİLANDA QALDIRDI VƏ DÜŞMƏNİ BU TORPAQLARDAN QOVDU"

44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın şanlı Ordusu 30 ilə yaxın həsrətə son qoyaraq, erməni təcavüzkarlarına dərs verdi və torpaqlarımızı işğaldan azad etdi.

Ardı Səh. 3

"Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir!"

"Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı. Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu"

> "Ordumuzu gücləndirdik, iqtisadiyyatı gücləndirdik, beynəlxalq mövqelərimizi genişləndirdik və istədiyimizə nail olduq, tarixi ədalətə nail olduq"

Əvvəli Səh. 2

29 oktyabr 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş rayonda on minlərlə insan qırılmaq təhlükəsi ilə üz-üzə qalmışdı. İşğal dövründə Zəngilandakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb. Cənab Prezidentin bildirdiyi kimi, "Köhnə Zəngilandan bir şey qalmayıb". Qeyd edib ki, mənfur düşmən demək olar ki, bütün binaları dağıdıb: "Bir neçə bina qalıb ki, orada hərbçilər yerləşirdi. Qalan bütün binaları,

bütün kəndlərin binalarını bir məqsədlə dağıtmışlar ki, biz buraya qayıtmayaq. Amma biz qayıtmışıq, şanlı Ordumuz düz bir il bundan əvvəl Azərbaycan bayrağını Zəngilanda qaldırdı və düşməni bu torpaqlardan qovdu".

Dövlətimizin başçısı qeyd edib ki, bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir. Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı: "Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu. Birinci sırada gedən məhz o uşaqlar idi ki, işğaldan sonra dünyaya gəliblər və bəlkə də işğal dövründə onların 5-10 yaşı var idi. Yəni, bu, onu göstərir ki, xalqımız müqəddəs Zəfər gününü gözləyirdi, bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq, bu günü gözləyirdi və inanırdı ki, bu gün gələcək və biz də, sadəcə olaraq, bütün xalqımızı səfərbər etmək, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək üçün səylər göstərdik. Əlbəttə ki, ordumuzu gücləndirdik, iqtisadiyyatı gücləndirdik, beynəlxalq mövqelərimizi genişləndirdik və istədiyimizə nail olduq, tarixi ədalətə nail olduq. Bu gün sizinlə bərabər buradayıq. Mən dördüncü dəfədir ki, Zəngilana gəlirəm. Dekabr ayında gəlmişdim, o vaxt vəziyyətlə tanış olduq. Ondan sonra fevral ayında gəlmişdim, o vaxt ermənilər tərəfindən bir çox hissəsi dağıdılmış Bəsitçay qoruğunda çinar ağacları əkdik. Aprel ayında gələndə hava limanının təməli qoyuldu. İndi oraya baş çəkdim, artıq zolağın torpaq işləri hazırlanır. Bilirsiniz ki, sovet vaxtında Zəngilanda hava limanı yox idi. Amma indi nəinki hava limanı, beynəlxalq hava limanı olacaq və Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcək. Çünki Zəngəzur dəhlizi buradan keçir, dəmir yolu, Horadiz-Ağbənd avtomobil yolu tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq. Birinci mərhələdə Ermənistan tərəfi müqavimət göstərsə də, indi özləri artıq buna razılaşıblar. Burada, əlbəttə ki, yumşaq desək, bizim rolumuz az deyil.

Ardı Səh. 4

"Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir!"

"Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı. Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu"

Əvvəli Səh. 3

29 oktyabr 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş rayonda on minlərlə insan qırılmaq təhlükəsi ilə üz-üzə qalmışdı. İşğal dövründə Zəngilandakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb. Cənab Prezidentin bildirdiyi kimi, "Köhnə Zəngilandan bir şey qalmayıb". Qeyd edib ki, mənfur düşmən demək olar ki, bütün binaları dağıdıb: "Bir neçə bina qalıb ki, orada hərbçilər yerləşirdi. Qalan bütün binaları, bütün kəndlərin binaları-

> Zəngilan ölkə üzrə çox müasir və böyük əhəmiyyətə malik olan bölgəyə çevriləcəkdir

nı bir məqsədlə dağıtmışlar ki, biz buraya qayıtmayaq. Amma biz qayıtmışıq, şanlı Ordumuz düz bir il bundan əvvəl Azərbaycan bayrağını Zəngilanda qaldırdı və düşməni bu torpaqlardan qovdu".

Dövlətimizin başçısı qeyd edib ki, bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir. Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı: "Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu. Birinci sırada gedən məhz o uşaqlar idi ki, işğaldan sonra dünyaya gəliblər və bəlkə də işğal dövründə onların 5-10 yaşı var idi. Yəni, bu, onu göstərir ki, xalqımız müqəddəs Zəfər gününü gözləyirdi, bütün çətinliklərə, əzabəziyyətlərə baxmayaraq, bu günü gözləyirdi və inanırdı ki, bu gün gələcək və biz də, sadəcə olaraq, bütün xalqımızı səfərbər etmək, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək üçün səylər göstərdik. Əlbəttə ki, ordumuzu gücləndirdik, iqtisadiyyatı gücləndirdik, beynəlxalq mövqelərimizi genişləndirdik və istədiyimizə nail olduq, tarixi ədalətə nail olduq. Bu gün sizinlə bərabər buradayıq. Mən dördüncü dəfədir ki, Zəngilana gəlirəm. Dekabr ayında gəlmişdim, o vaxt vəziyyətlə tanış olduq. Ondan sonra fevral ayında gəlmişdim, o vaxt erməni-



lər tərəfindən bir çox hissəsi dağıdılmış Bəsitçay qoruğunda çinar ağacları əkdik. Aprel ayında gələndə hava limanının təməli qoyuldu. İndi oraya baş çəkdim, artıq zolağın torpaq işləri hazırlanır. Bilirsiniz ki, sovet vaxtında Zəngilanda hava limanı yox idi. Amma indi nəinki hava limanı, beynəlxalq hava limanı olacaq və Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcək. Çünki Zəngəzur dəhlizi buradan keçir, dəmir yolu, Horadiz-Ağbənd avtomobil yolu tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq. Birinci mərhələdə Ermənistan tərəfi müqavimət göstərsə də, indi özləri artıq buna razılaşıblar. Burada, əlbəttə ki, yumşaq desək, bizim rolumuz az deyil.

"Azərbaycanda xalq-lider birliyi və milli həmrəylik amili müstəqilliyimizin qarantı, davamlı uğurlarımızın təminatçısıdır"

YAP Mərkəzi Aparatında "Vətən müharibəsi: Prezident-Xalq-Ordu birliyinin möhtəşəm rəmzi" mövzusunda dəyirmi masa keçirilib

Oktyabrın 21-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında "Vətən müharibəsi: Prezident-Xalq-Ordu birliyinin möhtəşəm rəmzi" mövzusunda dəyirmi masa keçirilib.

Dəyirmi masada Milli Məclisin komitə sədrləri, Milli Məclisdə təmsil olunan siyasi partiyaların rəhbərləri, hərbi, siyasi ekspertlər, QHT rəhbərləri və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Tədbirdə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dəyirmi masada çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, müasir dövrdə hər bir ölkənin gücünü müəyyən edən əsas amillərdən biri milli həmrəylik faktorudur. Həmrəylik, əsas etibarilə, cəmiyyətin ümummilli məsələlər ətrafında səfərbər edilməsindən, toplumun mənəvi-siyasi enerjisinin milli maraqların qorunmasına yönləndirilməsindən asılıdır. Tarixi faktlar və reallıqlar təsdiq edir ki, burada əsas - aparıcı amil lider faktoru və ya liderlik fenomenidir.

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycanda xalq-lider birliyi, yəni milli həmrəylik amili

həm müstəqilliyimizin, suverenliyimizin qarantı, həm də davamlı uğurlarımızın təminatçısıdır: "Ümumiyyətlə, müstəqillik dövrünün prosesləri və reallıqları təsdiqləyir ki, milli həmrəylik xalqımız, dövlətimiz üçün taleyüklü anlarda həlledici faktor kimi çıxış edib. Ümummilli lider Heydər Əliyev Azərbaycanda milli həmrəyliyi təmin etməklə sabitliyin və təhlükəsizliyin qorunmasına, inkişafın davamlı prosesə çevrilməsinə nail ola bilib. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər ərzində həmrəylik Azərbaycan dövlətinin milli gücünü artıran amillərdən biri olub. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 18 il ərzində isə milli həmrəyliyin daha da gücləndirilməsi Azərbaycanın möhtəşəm nailiyyətər qazanaraq yeni zirvələr fəth etməsinə gətirib çıxarıb və ölkəmizin dünya birliyində layiqli yer tutmasını şərtləndirib. Azərbaycanın adının dünya siyasi tarixinə qalib ölkə kimi yazılmasını, tarixi ədalətin, milli ləyaqətin və milli qürurun bərpasını təmin edən 44 günlük Vətən müharibəsində qazanılmış qələbədə isə milli həmrəylik amilinin yeri və rolu müstəsnadır. Daha dəqiq desək, Prezident-Xalq-Ordu birliyi Azərbaycanın tarixi qələbəsinin əsasında duran ən mühüm amildir".

Tahir Budaqovun sözlərinə görə, 44 günlük Vətən müharibəsi dövründə ölkəmizdə fəaliyyət göstərən əksər siyasi partiyalar Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin prinsipial siyasətinə qətiyyətli dəstək göstərdilər, müxtəlif xalqların nümayəndələri yumruq kimi birləşərək döyüş meydanına atıldılar, gənclərimiz Vətənin bütövlüyü uğrunda mübarizəyə qatılaraq şərəf və şanlı qürur tarixi yazdılar. İkinci Qarabağ müharibəsinin nəticəsi olan tarixi qələbə Prezident-Xalq-Ordu birliyinin möhtəşəmliyini, Azərbaycan dövlətinin milli gücünü, xalqımızın isə mübarizə əzmini - sarsılmaz həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Bir daha sübuta yetirildi ki, güclü - qüdrətli Azərbaycan mürəkkəb beynəlxalq şərtlərə və şəraitə, bəzi dairələrin təzyiq cəhdlərinə baxmayaraq, istənilən strateji hədəfini reallaşdırmaq əzmində və iqtidarındadır!

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, Prezident-Xalq-Ordu birliyinin təntənəsi olan möhtəşəm qələbənin nəticələri təkcə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpasını deyil, eyni zamanda, istər Cənubi Qafqaz regionunda, istərsə də Avrasiyada yeni geostrateji reallıqların təşəkkülünə səbəb olub: "Azərbaycan öz milli gücü, hərbi-siyasi resursları ilə işğal faktına son qoymaqla - münaqişəni və separatizm faktını aradan qaldırmaqla yeni təhlükəsizlik və əməkdaşlıq mühiti formalaşdırıb. Yeni reallıqlar fonunda şərtləri qalib və üstün tərəf olan Azərbaycan diktə edir. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə sistemli quruculuq işlərinin aparılması, tarixi, dini və mədəni abidələrimizin bərpa olunması regional inkişafın əhatə dairəsinin genişlənməsinə səbəb olmaqla yaşayış, milli tərəqqinin yeni mərhələsinə transformasiya deməkdir. Bütün bunlar xalq-lider birliyinin postmüharibə dövründə də Azərbaycanı siyasi-diplomatik və sosial-iqtisadi müstəvidə mühüm uğurlara daşıdığını, ölkəmizin qarşısında parlaq perspektivlər açdığını göstərir. Reallıqlar deməyə əsas verir ki, Azərbaycan bundan sonra da Prezident-Xalq-Ordu birliyi sayəsində öz mövqeyini daha da möhkəmləndirəcək, siyasi və iqtisadi imkanlarını genişləndirərək mühüm üstünlüklər qazanacaq. Bu isə xalqımızın milli sərvəti olan müstəqilliyimizin qorunması, tarixi qələbəmizin nəticələrinin möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında davamlı yüksəlişi və nəhayət, daha güclü - daha qüdrətli Azərbaycan deməkdir!".

Sonra Vətəndaş Həmrəyliyi Partiyasının sədri, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı "Siyasi dialoq və həmrəylik" mövzusunda çıxış edərək bildirib ki, Vətən müharibəsi nəticəsində Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu, torpaqlarımız işğaldan azad edildi. Onun sözlərinə görə, müharibədən sonra yeni Azərbaycan yaranıb: "Torpaqlarımızın işğaldan azad edilməsi məsələsində əksər siyasi partiyaların bir araya gəlməsi müharibədə qələbəyə təsir edən amillərdən biri olub. Vətən müharibəsi başlayan gün ölkədə fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyəti birgə bəyanat imzalayaraq Ali Baş Komandana və orduya dəstək nümayiş etdirdilər. Ümummilli məsələlərdə vahid mövqeyin qorunması əsas şərtdir".

S.Rüstəmxanlı qeyd edib ki, bu gün dünyada siyasi ünsiyyəti dialoqsuz təsəvvür etmək mümkün deyil. Azərbaycanda normal dialoq mühitinin formalaşdığını deyən partiya sədri ölkəmizdə yeni siyasi konfiqurasiyanın yaranmasının əhəmiyyətini diqqətə çatdırıb və bu istiqamətdə Prezident İlham Əliyevin təşəbbüslərini yüksək dəyərləndirib. Onun fikrincə, siyasi partiyalar arasında bu birlik qorunmalıdır. S.Rüstəmxanlı siyasi münasibətlərin və dialoqun inkişafı ilə bağlı bir sıra təkliflər də irəli sürüb.

"Vətən müharibəsi: haqq və şərəf işi" mövzusunda çıxış edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc isə bildirib ki, Azərbaycanın son iki yüz ildə belə bir möhtəşəm qələbə qazanmasının əsas səbəbi xalqın xilaskar lider ətrafında sıx birləşməsi olub. Onun sözlərinə görə, bu birliyin bundan sonra da qorunub saxlanmasına nail olmalıyıq: "Əgər biz ötən illərdə məğlubiyyətin acısını, çətinliyini yaşayırdıqsa, indi də qazandığımız qələbəni qorumalı, onu möhkəmləndirməliyik. Çünki qələbədən sonra müəyyən dairələr tərəfindən ölkəmizə qarşı şər-böhtan kampaniyasının aparıldığını görürük. Ona görə də, biz milli birliyimizi daha da gücləndirməli, Prezidentimizin ətrafında bundan sonra da sıx birləşməliyik".

Dəyirmi masada "Müqəddəs savaş: cəsurluğun, şücaətin və vətənpərvərliyin təntənəsi" mövzusunda çıxış edən iki dəfə "Azərbaycan Bayrağı" ordenli ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov bildirib ki, Azərbaycan ordusunun müharibədə qələbə qazanmasının əsas səbəblərindən biri yüksək vətənpərvərlik amilidir.

Ardı Səh. 6

"Azərbaycanda xalq-lider birliyi və milli həmrəylik amili müstəqilliyimizin qarantı, davamlı uğurlarımızın təminatçısıdır"

YAP Mərkəzi Aparatında "Vətən müharibəsi: Prezident-Xalq-Ordu birliyinin möhtəşəm rəmzi" mövzusunda dəyirmi masa keçirilib

Əvvəli Səh. 5

Onun sözlərinə görə, ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra xalqımızın özünə inamı qayıtdı, o cümlədən, orduda, gənclərimizdə yüksək döyüş ruhu formalaşmağa başladı. Məhz bunun nəticəsidir ki, Birinci Qarabağ müharibəsində torpaqlarımızın bir hissəsi azad edildi. Atəşkəs dövründə isə Ulu Öndər tərəfindən güclü ordu quruculuğuna başlanıldı. Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirərək Azərbaycan-

da güclü ordu yaratdı. Bu gün bizim Silahlı Qüvvələrimiz dünyanın ən güclü 50 ordusu sırasındadır. Ötən dövr ərzində çox yüksək vətənpərvər ruhlu gənc nəsil formalaşdı ki, bu amil qələbəmizin təmin olunmasında öz sözünü dedi".

Tədbirdə Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru, politoloq Eldar Namazov "Vətən müharibəsi və yeni tarixi reallıqlar" mövzusunda çıxış edərək bildirib ki, hazırda tarixi proseslər yaşayırıq. Onun sözlərinə görə, dövlətimiz və xalqımız çox böyük qələbə qazanıb: "Azərbaycanla Türkiyə regionda güc balansını dəyişib. Hamı bu reallıqla barışmalıdır. Gələcəkdə bölgədə baş verəcək proseslərdə Azərbaycan müstəsna rol oynayan ölkələrdən biri olacaq. Biz artıq bunun son günlərdə İranla yaşanan gərginlikdə də şahidi olduq. Artıq İran rus sülhməramlılarının nəzarətində olan ərazilərimizə yük daşınmasına son verdi. Bu barədə İran tərəfi müvafiq qərar qəbul edib. Hesab edirəm ki, artıq bütün türk dövlətlərinin birliyinin daha da güclənməsi prosesi gedir və bu baxımdan gələcəkdə yeni bir güc mərkəzinin yaranmasının şahidi olacağıq. Noyabr ayında İstanbulda keçiriləcək türkdilli ölkələrin zirvə sammitində vacib qərarların qəbul

edilməsi gözlənilir".

Politoloqun fikrincə, 44 günlük Vətən müharibəsindəki qələbəmizə tam qiymətin verilməsi üçün zaman lazım olacaq: "Biz dövlətimizin, liderimizin ətrafında sıx birləşməliyik. Bizi qarşıda işğaldan azad edilmiş

ərazilərdə bərpa və quruculuq işlərini həyata keçirmək üçün böyük iqtisadi layihələr gözləyir. Biz artıq bölgədə yeni bir güc mərkəziyik. Gələcəkdə bu hadisələr dərsliklərə, kitablara qızıl hərflərlə yazılacaq".

Tədbirdə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov isə "Paralel baxış: Vətən müharibəsi və informasiya sava-

şı" mövzusunda çıxış edib. O bildirib ki, müasir dövrdə müharibələr hibrid müharibələr kimi səciyyləndirilir. Onun əsas komponentlərindən biri də informasiya müharibəsidir.

H.Məmmədov qeyd edib ki, 44 günlük müharibədə düşmənin və onun havadarlarının bizim informasiya məkanımıza müdaxilə cəhdlərini gördük: "Müharibə həm də informasiya məkanında gedirdi. 44 gün

ərzində 35-dən çox xarici KİV-ə müsahibə verən Prezident İlham Əliyev informasiya müharibəsində də qələbəmizi təmin etdi. Amma bu gün də informasiya savaşı davam edir və bütün cəmiyyətimiz, o cümlədən siyasi partiyalar milli maraqlarımızın qorunması naminə bu prosesdə fəal iştirak etməlidir".

Dəyirmi masada həmçinin, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, Milli Məclisin deputatı Qüdrət Həsənquliyev, Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı, Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa, Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev, Respublikaçı Alternativ Partiyasının sədri İlqar Məmmədov, Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı Asim Mollazadə, Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı Tahir Kərimli, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri Rəna Mirzəzadə və iqtisadçı Fuad İbrahimov çıxış edərək 44 günlük Vətən müharibəsində qazanılan qələbənin əhəmiyyətini və bu qələbənin əldə olunmasında milli birliyin və həmrəyliyin xüsusi rolunu vurğulayıblar. Çıxışlarda həmçinin, siyasi münasibətlərin inkişafı ilə bağlı fikir və təkliflər səsləndirilib.

Sonda çıxış edən Milli Məclis sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli dəyirmi masada faydalı müzakirələrin aparıldığını bildirib və səsləndirilən təkliflərin diqqət mərkəzində saxlanılacağını vurğulayıb. Birinci vitse-spiker qeyd edib ki, Vətən müharibəsində ölkəmizdə siyasi baxışlarından asılı olmayaraq siyasi partiyaların mütləq əksəriyyətinin vahid mövqedən çıxış etməsi birliyimizin əyani göstəricisi oldu. Ə.Hüseynli gələcəkdə də bu tipli tədbirlərin keçirilməsinin önəmini diqqətə çatdırıb.

Tədbirə yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu cür görüşlərin bundan sonra da keçiriləcəyini, ümummilli maraqlar ətrafında bütövlükdə cəmiyyətin, o cümlədən siyasi partiyaların gələcəkdə də həmrəylik nümayiş etdirəcəyinə əminliyini ifadə edib.

YAP və AK Parti arasında növbəti videokonfrans keçiriləcək

Oktyabrın 26-da Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası arasında videokonfrans keçiriləcək.

Bu barədə YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu gün Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında "Vətən müharibəsi: "Prezident-Xalq-Ordu birliyinin möhtəşəm rəmzi" mövzusunda keçirilən dəyirmi masada məlumat verib.

Tahir Budaqov bildirib ki, videokonfransın müzakirə mövzusu Vətən müharibəsində əldə edilən qələbə və bölgədə yaranan yeni reallıqlardır. O, dəyirmi masada iştirak edən siyasi partiyaların rəhbərlərini həmin tədbirdə iştirak etməyə dəvət edib. YAP Sədrinin müavini həmçinin qeyd edib ki, Vətən müharibəsində qazanılan qələbədən sonra Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artıb: "Artıq YAP Gənclər Birliyinin nümayəndələri Qazaxıstanda səfərdə olublar. Ukrayna və Özbəkistanın siyasi partiyalarının da əməkdaşlıq təklifləri var. Çin Kommunist Partiyası da diplomatik kanallar vasitəsilə bizimlə videokonfrans formatında görüşmək istəyir. Bu görüşün mövzusu ilə bağlı müzakirələr olacaq".

Tahir Budaqov vurğulayıb ki, türk dövlətlərinin siyasi partiyaları ilə ikitərəfli əlaqələrin formalaşması istiqamətində də mühüm addımlar atılacaq.

YAP Səbail rayon təşkilatı "Əhməd Cavad 16" ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı keçirilib

Oktyabrn 20-də YAP Səbail rayon təşkilatı "Əhməd Cavad 16" ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı keçirilib. Ərazi ilk partiya təşkilatının sədri Salahlı Səyyad hesabat məruzəsi ilə çıxış edərək təşkilatın VI qurultayından sonrakı dövr ərzində görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışdı. Bildirdi ki, təşkilatdakı YAP üzvləri istər ölkə səviyyəsində keçirilən tədbirlərdə, istərsə də rayon tədbirlərində fəal iştirak edirlər. Hesabat məruzəsi ətrafında geniş müzakirələr aparılıb və ərazi ilk partiya təşkilatının hesabatı qənaətbəxş hesab olunaraq qəbul edilib. Daha sonra partiya təşkilatının rəhbər orqanlarının yeni tərkibi seçilib. Yığıncaqda çıxış edən YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev hesabat məruzəsini və ilk partiya təşkilatının fəaliyyətini qənaətbəxş qiymətləndirib. YAP-ın sədri cənab Prezident İlham Əliyevin təhsil sahəsində apardığı düşünülmüş və məqsədyönlü siyasətdən danışan M.Nağıyev bildirib ki, ölkəmizdə neft kapitalının insan kapitalına çevrilməsi üçün əsaslı işlər görülür, təhsil ocaqlarımızın maddi-texniki təchizatının yaxşılaşdırılması, yeniləşdirilməsi hər zaman ölkə başçısı İlham Əliyevin və ölkənin birinci xanımı Mehriban Əliyevanın diqqət mərkəzindədir. M.Nağıyev bildirib ki, 44 günlük vətən müharibəsində Prezident İlham Əliyev heç bir xarici təyziqlərə məhəl qoymayıb:

"Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Şübhəsiz, sosial-siyasi sabitliyin qorunması, mövcud iqtisadi inkişaf, hərtərəfli tərəqqi heç də asan məsələ deyildi. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin elan etdiyi "Qarabağ Azərbaycandır və nida" şüarı xalqımızı qələbəyə səsləyən rəhbər çağırışı oldu. 44 gün davam edən Vətən müharibəsində cəmiyyətimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik xalqımızın dövlət başçısının ətrafında sıx birləşdirdi".

M.Nağıyev yeni seçilmiş sədr və müavini təbrik edərək, Dini Qurumlarla İş Üzrı Dövlət Komitəsinin işlərində uğurlar arzulayıb, iclas iştirakçılarını partiyanın fəaliyyətində daha da yaxından iştirak etməyə çağırıb. Çıxış edən M. Nağıyev Yeddinci qurultayda YAP rəhbərliyi tərəfindən qarşıya qoyulan vəzifələr, öhdəliklər, yeni sturuktur və yeni fəaliyyət haqda partiya fəallarına məlumat verib.

Rəfiqə

Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının təşkilatçılığı ilə "Nizami Gəncəvinin müasirliyi" mövzusunda videokonfrans keçirilib

Oktyabrın 21-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının təşkilatçılığı ilə "Nizami Gəncəvinin müasirliyi" mövzusunda videokonfrans keçirilib.

YAP Veteranlar Şurasının üzvlərinin, partiyanın rayon təşkilatlarının fəallarının iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, bugünkü konfrans Nizami Gəncəvinin 880 illik yubileyi ilə bağlıdır. Prezident İlham Əliyevin Sərəncamı ilə 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi İli" elan edilib. Sərəncamda da qeyd olunduğu kimi, Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilib. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də daim xüsusi diqqət yetirib. Ulu Öndərin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunan "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açıb. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilib. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilib.

Milli Məclisin deputatı, AMEA-nın həqiqi üzvü, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, professor Nizami Cəfərov isə bildirib ki, əlbəttə, Nizami Gəncəvi Azərbaycanın varlığının simvollarından biridir: "Nizami Gəncəvinin 800 illik yubileyi keçirildikdən sonra dahi şair daha çox tanınmağa başlayıb və o vaxtdan da onun bir Azərbaycan şairi, mütəfəkkiri olması ilə bağlı akademik səviyyələrdə mülahizələr meydana çıxıb. Dünyanın ən böyük şairlərinin yeni dövrə qədər Nizami Gəncəvi yaradıcılığına müraciət etmələri onun ideyalarının böyüklüyünün təqdimatıdır.

2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi ili" elan olunması Nizaminin dünya şöhrəti ilə yanaşı, həm də dövlətimizin Nizami Gəncəvi irsinə münasibətinin səciyyəvi cəhəti kimi də qeyd olunmalıdır. Ümummili Lider Heydər Əliyevin Nizami yaradıcılığına, şəxsiyyətinə çox böyük dəyər verdiyini söyləyən Nizami Cəfərov dünya azərbaycanlılarının Lideri, prezident İlham Əliyevin də müasir dünyada Nizamini tanıtmağın çox müxtəlif yollarının, üsullarının kəşfi ilə fərqləndiyini söyləyib. Bu mənada qeyd edib ki, Prezidentin 2021-ci ili "Nizami Gəncəvi ili" elan etməsi çox dərin ictimai-siyasi məzmun daşıyır.

Çıxış edən Veteranlar Şurasının üzvü Tahir Məmmədovun sözlərinə görə, Azərbaycan xalqının görkəmli şairi və dahi mütəfəkkiri, böyük söz ustadı Nizami Gəncəvi təkcə Azərbaycan ədəbiyyatını deyil, bütün dünyanın söz xəzinəsini bədii olaraq zənginləşdirib. Şairin əsərlərində obrazı yaradılan, dolğun bədii boyalarla təsvir olunan kərpickəsənlər, daş yonanlar, böyük məqbərələri ərsəyə gətirən memarlar, nəqqaş və sazəndalar, xəttatlar bu gün obrazlı şəkildə qeyd etsək, Azərbaycanın işğaldan azad olunmuş kəndlərində, şəhərlərində qızğın quruculuq işləri ilə məşğuldurlar.

Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının fəalı Ayna Əlixanova Nizami Gəncəvi yaradıcılığından, 2021-ci ilin "Nizami Gəncəvi İli" elan olunmasının əhəmiyyətindən bəhs edib. Bildirib ki, Nizami Gəncəvin mənəvi zənginliyi hər şeydən üstün tutub. O, özünü ölməz, bənzərsiz yaradıcılığını ülvi hislərin, humanizm, xeyirxahlıq, ədalət kimi nəcib keyfiyyətlərin tərənnümünə həsr edib. Mübaliğəsiz demək olar ki, Nizami Gəncəvi dünyanın ən böyük şairləri ilə bir sırada durur və onun əsərləri bizim üçün, eləcə də gələcək nəsillər üçün daim ilham mənbəyi olacaqdır.

Müzakirə şəklində davam edən videokonfransda partiya fəalları - Elnur Tağıyevin, Gülər Bayramın və Varis Rüstəmovun sualları cavablandırılıb.

Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatı ərazi partiya təşkilatlarının hesabat seçki yığıncaqları davam edir

Oktyabrın 21-də YAP Xətai rayon təşkilatı Rəşid Bağırov küçəsi 30 və Rövşən Əliyev küçəsi 19 ünvanlarında yerləşən ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarını keçirib. Hesabat məruzələri dinlənilib, çıxışlar əsasında ərazi partiya təşkilatlarının hesabat dövründəki fəaliyyətləri qiymətləndirilib.

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə yığıncaqlarda çıxış edərkən bildirib ki, ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan möhkəm təməl üzərində gələcəyə doğru inamla irəliləyir: "Hər bir ölkənin inkişafında əsas faktor olan sabitliyin təminatı dövlətimizin həyata keçirdiyi siyasətin əsasını təşkil edir. Bu gün böyük inamla qeyd edirik ki, ölkəmizdə sabitliyin və əlverişli biznes mühitinin mövcudluğu nəticəsində Azərbaycan böyük investisiyalar məkanına çevrilib. Təbii ki, yeni dostlar, tərəfdaşlar qazanan Azərbaycan investisiya cəlbediciliyini qorumaqla yanaşı, eyni zamanda, investisiya yatıran ölkə kimi də tanınır və nüfuz qazanır. Gələcəklə bağlı prioritetlər açıqlanarkən işğaldan azad edilmiş torpaqlarımızın yaxın zamanlarda investisiya məkanına çevriləcəyi xüsusi qeyd edilir. Bu ərazilərimizin malik olduqları potensial imkanlardan səmərəli istifadə etməklə ölkəmizin dayanıqlı inkişafına, iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla davam etdirilməsinə dəstək olmaq mümkündür."

V.Rəhimzadə vurğulayıb ki, Azərbaycanın müstəqilliyinin bərpasından ötən 30 ilin uğurlarının bələdçisi olan Yeni Azərbaycan Partiyası "Güclü dövlət, yüksək rifah" prinsipinə söykənərək dövrün tələblərinə uyğun müəyyənləşdirilən hədəflərin gerçəkləşməsinə öz töhfələrini verir, ictimaiyyətin böyük rəğbətini qazanır. Yarandığı gündən xalqın partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının sıralarında bu gün 760 mindən artıq üzvü birləşdirməsi də deyilənlərin təsdiqidir.

Hesabat seçki-yığıncaqlarında təşkilati məsələlərə baxılıb.

Rəşid Bağırov küçəsi 30 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri Ceyhun Əliyev, sədr müavini Nərmin Məmmədova, Rövşən Əliyev küçəsi 19 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri Əkbər Hacıyev, sədr müavini isə Vilayət Mirzəyev seçiliblər.

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə yeni tərkiblərə fəaliyyətlərində uğurlar diləyib.

Şəhid Arəstə Baxışovanın məzarı ziyarət olunub

Bu gün Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsində şəhid olmuş Arəstə Baxışovanın anım günü ilə əlaqədar şəhidin məzarı ziyarət olunub. SİA-nın məlumatına görə, mərasimdə Arəstə Baxışovanın anası Məktubə Baxışova, YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Binəqədi rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev, Milli Məclisin deputatları Afət Həsənova və Kəmaləddin Qafarov, YAP Binəqədi rayon təşkilatının sədri Vüsal İsmayılov, YAP Mərkəzi Aparatının və YAP Binəqədi rayon təşkilatının nümayəndələri iştirak ediblər.

Anım mərasimində iştirak edənlər şəhidin məzarı üzərinə gül dəstələri düzüblər. Mərasimdə çıxış edən Ailə, Qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki, bu gün Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışovanın məzarını anım günü ilə əlaqədar ziyarət etdik: "Şəhidlər xiyabanları bu günlərdə heç vaxt boş olmur. Şəhid yaxınları, vətəndaşlarımız şəhidlərimizin məzarlarını ziyarət edərək onların ruhuna dualar oxuyurlar. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan xalqı ordusu ilə birlikdə Vətən müharibəsində cəmi 44 gün ərzində böyük bir qəhrəmanlıq salnaməsi yazıb. Torpaqlarımızın azadlığı uğrunda canından keçən igidlərimiz, oğullarımız, qızlarımız öz qanları bahasına bu şərəfli tarixi yazıblar. Allah şəhidlərimizə rəhmət etsin! Onlar əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq!.

Vətənin müdafiəsi, üçrəngli bayrağımız, torpaqlarımızın bütövlüyü, azadlıq və istiqlaliyyəti uğrunda canını qurban verən qəhrəmanlar heç vaxt unudulmur, ölümsüzlüyə qovuşurlar. Birinci və ikinci Qarabağ müharibələrində xalqımızın neçə-neçə vətənpərvər, cəsur, mərd oğulları, qızları Qarabağımızın öz sahiblərinə qovuşması üçün qəhrəmanlıqla döyüşərək şəhidlik zirvəsinə ucaldılar. İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm Zəfərimizdə, 30 il sonra işğaldan azad edilən torpağımızın hər qarışında igidliklə vuruşaraq şəhid olan 3 minə yaxın şəhidimizin qanı, hər birinin fərqli qəhrəmanlıq salnaməsi var. Torpaq uğrunda mübarizədə canını fəda edən, şəhidlik məqamına ucalmaqla ölümsüzləşən 44 günlük Vətən müharibəsinin ilk və yeganə xanım şəhidi hərbi tibb qulluqçusu Arəstə Baxışovadır. Xalqımızın qəhrəman qızı Arəstə Baxışova yaralı hərbçilərimizi döyüş meydanından çıxararkən şəhid olaraq, əsl hərbçi, əsl şəfqət bacısı, əsl Azərbaycan xanımı kimi şəhadət zirvəsinə yüksəlib".

Milli Məclisin deputatı Afət Həsənova vurğulayıb ki, bu il 27 sentyabr tarixindən başlayaraq ölkəmizin hər bir bölgəsində şəhidlərimizin anım günləri qeyd olunur: "Bu nə qədər ağır olsa da, bir o qədər qürurvericidir. Bu gün biz 44 günlük Vətən müharibəsində yeganə şəhid xanım olan Arəstə Baxışovanın anım gününə toplaşmışıq. Arəstə xanımın könüllü şəkildə müharibəyə getməsi, orada yaralı əsgərlərimizin yanında olması, onlara yardım əlini uzatması əsl Azərbaycan xanımının simasıdır. Bəli, bizim ana-bacılarımız igidlərimizin yanında Vətənin müdafiəsinə qalxıblar. Mən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Şəhidlərimiz öz qanı bahasına əyilən qəddimizi düzəltdilər, qürurumuzu özümüzə qaytardılar. Mən şəhid analarının qarşısında baş əyir, onlara Allahdan səbr diləyirəm".

Milli Məclisin deputatı Kəmaləddin Qafarov 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun şücaətindən, xalqımızın həmrəyliyindən bəhs edərkən bildirib ki, Azərbaycan xalqı necə böyük bir xalq olduğunu müharibə dövründə bir daha göstərib: "İgidlərimiz ön cəbhədə düşmənə lazımı cavabı verərkən, arxa cəbhədə də ana-bacılarımız əllərindən gələn köməkliyi göstərirdilər. Döyüşdə şücaət göstərən oğullarımızın yanında Azərbaycan ana-bacılarının timsalında Arəstə xanım dayanmışdı. Biz hər bir şəhidimizin qarşısında baş əyir, şəhid analarına səbr diləyirik. Allah şəhidlərimizə rəhmət eləsin!".

Binəqədi rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev bildirib ki, bu gün Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış Arəstə xanımın anım gününə toplaşmışıq: "2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusunun yağı düşmən üzərində Zəfəri Azərbaycan tarixinə qızıl hərflərlə əbədi olaraq həkk olunub. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş bütün şəhidlərimizi dərin ehtiramla yad edir, onların əziz xatirəsini daim uca tuturuq".

YAP Binəqədi rayon təşkilatının sədri Vüsal İsmayılov bildirib ki, Vətən müharibəsində canından keçən hər bir şəhidimizə borcluyuq: "Onlar qanı bahasına Azərbaycan xalqının 30 illik qanayan yarasını sararaq torpaqlarımızı işğaldan azad edirdilər. İşğaldan azad olunmuş vətən torpağının hər bir qarışında şəhidlərimizin qanı var. Bu gün qeyrətli Azərbaycan xanımı, Vətən müharibəsinin yeganə xanım şəhidi Arəstə xanımın anım gününə toplaşmışıq. Allahdan ona rəhmət, şəhidimizin anasına isə səbr diləyirəm. Allah vətən yolunda canından keçmiş bütün şəhidlərimizə rəhmət eləsin!".

Sonda isə şəhidin anası Məktubə Baxışova vurğulayıb ki, 44 günlük Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında qızının da payı olduğu üçün qürur duyur: "Arəstə cəbhədə əsgərlərimizə ana-bacı olub, onlara kömək edib. Ali Baş Komandanın dəmir iradəsi, ordumuzun şücaəti nəticəsində torpaqlarımız işğaldan azad edilib, düşmənə yeri göstərilib. Arəstə də xidməti vəzifəsini yerinə yetirən zaman Şəhidlik zirvəsinə ucalıb. Qızım iki övladını mənə əmanət edib. Mən onun ruhu qarşısında söz verirəm ki, iki övladını vətənə layiqli övlad kimi yetişdirəcəyəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin!".

Çıxışlardan sonra məktəblilər şəhidlərimizə həsr olunmuş şeir səsləndirib.

Sonda isə şəhidin anası Məktubə xanıma Milli Məclisin deputatı Ülviyyə Həmzəyevanın müəllifi olduğu şəhid Arəstə Baxışovanın rəsmini əks etdirən tablo təqdim olunub. Həmçinin Biləcəri qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn olunan digər şəhidlərin də məzarı ziyarət olunub, ruhlarına dualar oxunub, əziz xatirələri ehtiramla yad edilərək ailə üzvlərinə Allahdan səbr dilənilib.

Aysel Məmmədova

SİYASİ RAKURS + ÖZƏL

QƏLƏBƏNİN DADI!

İlham Əliyev: "Heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik"

44 günlük Vətən müharibəsində əldə edilən zəfərimizdən sonra erməni işğalından azad edilmiş ərazilərimizdə başlayan irimiqyaslı tikinti-quruculuq və nəhəng inşaat işləri ölçüyəgəlməz səviyyədə davam etdirilməkdədir. Artıq bildiyimiz kimi, Füzulidə beynəlxalq status almış hava limanının inşası, Kəlbəcərdə dağların yarılaraq altından tunellərin tikintisi, Laçında və Zəngilanda da hava limanı layihələrinin icrası üçün vaxtın ayrılması, Şuşada, Ağdamda və s. azad olunmuş torpaqlarımızda həyata keçirilən quruculuq prosesləri həm də qısa müddət kəsiyində reallaşdırılmaqdadır.

Habelə, rayon və qəsəbələrimizdə ağıllı kənd, ağıllı şəhər texnologiyalarına hesablanmış infrastrukturlarının yaradılması gerçəkliyi də sürətlə təsdiqini tapmaqdadır. Və ən əsası - bütün bunlar bilavasitə Azərbaycan dövlətinin vəsaitləri hesabına yaradılır.

Artıq bu gün daha bir faktor da sübuta yetirilir ki, illərdir özlərini "qurucu xalq" kimi zorla dünya birliyinə sırımağa çalışan işğalçılar əslində dağıdıcı, talançı, qəsbkar və cinayətkar olduqlarını 30 il bu torpaqlarımızı işğal altında saxladıqları müddətdə sübuta yetiriblər. Bu gün azad edilmiş ərazilərimizdə gecə və gündüz, fasiləsiz olaraq həyata keçirilən inşaat işləri, eləcə də torpaqlarımızın sürətli dirçəldilməsi prosesi həm də onu isbatlayır ki, əslində, bu regionun əsas qurucu xalqı məhz Azərbaycanlılardır. Çünki bu torpaqlar bizim ana yurdumuzdur, dədəbaba ocaqlarımızdır, biz bu torpaqların həsrəti ilə yaşayaraq bu günkü günləri səbirsizliklə gözləyirdik!

Prezident İlham Əliyevin rəhbərliyi altında başladılan işlər, dünya standartlarına cavab verən texnologiyaların tətbiqi, ümumiyyətlə, müasir dünyamızın tələbinə çevrilmiş 4-cü sənaye inqilabının əməli şəkildə bu torpaqlarımızda gerçəkliyə çevrilməsi əslində işğaldan azad eidlmiş ərazilərimizə səfər edən beynəlxalq təşkilat təmsilçilərini, xarici jurnalistləri, ictimai-siyasi daximləri, səfirlik nümayəndələrini də heyran qoymaqdadır. Bəli, Azərbaycan xalqı qalib Sərkərdəsinin, Müzəffər Liderinin rəhbərliyi altında əslində mümkünsüzü mümkün etdiyini əməli şəkildə sərgiləyir.

Prezident: "Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik"

Oktyabrın 17-də Füzuli rayonuna səfəri zamanı Prezident İlham Əliyev növbəti bəyanatları ilə əldə edilən uğurların davam etdiriləcəyini, xüsusilə işlərin hər birinin məhz Azərbaycan dövlətinin vəsaiti hesabına görüləcəyini vurğulayıb. Belə ki, Cəbrayılın baş planının təsdiqləndiyini, vəsaitlərin ayrıldığını qeyd edən ölkə başçımız digər şəhərlərimizin - Zəngilanın, Qubadlının, Kəlbəcərin və Laçının da baş planlarının hazırlandığını bəyan edib. SİTAT: "Bütün bu işləri biz görəcəyik. Bildiyiniz kimi, heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik".

Bəli, artıq bu torpaqlarımıza əsl insan nəfəsi, əsl həyat ab-havası geri qayıdır və bunu dövlət başçımız da öz çıxışında vurulayır: "Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir. Zəngilanda birinci kəndin inşası başa çatmaq üzrədir. Ağdam şəhərinin baş planı təsdiqləndi, işlərə start verildi. Cəbrayılın baş planı təsdiqləndi".

Ölkə rəhbəri: "Bu işləri görmək üçün əlbəttə ki, biz uzun illər işləmişik"

Təbii ki, görülən işlərin hər birinin təməlində uzun illərin çətinlikləri, aşırımlı yolları, qətiyyət və sarsılmazlıq prinsiplərinin dayanması da kim səyə sirr deyil. Bu qətiyyətlilik prinsipiallığını izə uzaqgörən Liderimiz İlham Əliyev möhkəm iradəsinə xas olan siyasi idarəçiliyi ilə isbatlayıb.

Ulu Öndər Heydər Əliyevin ideoloji və siyasi prinsiplərinə sadiq qalaraq inkişaflı iqtisadiyyat, qüdrətli ordu və güclü dövlət faktorunu siyasi kredo kimi müəyyənləşdirən Prezident İlham Əliyev Füzulidəki çıxışında hazırda reallaşdırılan işlərin də məhz bunların sayəsində əldə olunduğunu xüsusilə vurğulayıb. SİTAT: "Bu işləri görmək üçün əlbəttə ki, biz uzun illər işləmişik. Uzun illər həm torpaqlarımızı azad etmək üçün ordumuzu gücləndirmişik, həm postmüharibə dövründə quruculuq, bərpa işlərini görmək üçün şərait yaratmışıq, imkanlar yaratmışıq - texniki imkanlar, intellektual potensial, kadr potensialı və maliyyə resursları".

Dövlət başçısı: "Qarabağ və Şərqi Zəngəzur nəinki Azərbaycanın, dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir"

Dövlət başçımızın vurğuladığı daha bir önəmli mesajı dünyanı bürüyən koronavirus pandemiyası dövründə Azərbaycan iqtisadiyyatının dayanıqlı olması ilə bağlı fikirləridir. Məhz pandemiya böhranından sonra belə iqtisadiyyatımızın gücləndiyini bildirən Prezident İlham Əliyev vurğulayıb: "Bu gün Azərbaycan iqtisadiyyatı pandemiya böhranından sonra dirçəlir. Artıq mənə verilən məlumata görə, doqquz ayın rəqəmləri müsbətdir, iqtisadiyyat təxminən 5 faiz artıb, sənaye də artıb, qeyri-neft sənayesi isə təxminən 20 faiz artıb. Ancaq hər kəs bilməlidir ki, bütün bu bərpa işləri böyük vəsait tələb edir. Yenə də deyirəm, Azərbaycan heç kimdən heç bir yardım, bir qəpik də yardım almayıb və almayacaq. Bu günə qədər almayıbsa, bundan sonra da almayacaq. Bunu öz imkanlarımız çərçivəsində edəcəyik. Mən tam əminəm ki, bütün planlarımız maksimum qısa müddət ərzində həyatda öz əksini tapacaq, Qarabağ və Şərqi Zəngəzur nəinki Azərbaycanın, dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir".

Məhz bu fikirlərin təhlilini apararkən, nəticələrə gəlinərkən həm də belə bir amili vurğulaya bilərik: bu gün işğaldan azad edilmiş ərazilərimizdə görükən işlər, qarşıya qoyulan məqsədlər və proqnozlaşdırılan növbəti planlar - onların hər biri bilavasitə qələbənin dadıdır, zəfərin təntənəsidir, xüsusilə də Azərbaycanın yalnız hərbi-siyasi, yaxud diplomatik deyil, həm də iqtisadi nəhənglər sırasında yer almasının bariz sübutudur!

Rövşən RƏSULOV

XİN: "Azərbaycanlılar revanşist yönümlü qruplar tərəfindən etnik zəmində hədəfə alınır"

Ermənistanda revanşist yönümlü, hərbiləşdirilmiş qruplar Azərbaycana və azərbaycanlılara qarşı zorakı xarakterli çağırışlar edərək onları etnik zəmində hədəfə alırlar. Belə cəhdlər bu gün də sosial şəbəkələrdə və mətbuatda davamlı şəkildə həyata keçirilir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Ermənistana qarşı beynəlxalq səviyyədə hüquqi məsuliyyət tədbirlərinin həyata keçirilməsi ilə bağlı cari vəziyyətə dair məlumatında yer alıb.

Bildirilir ki, Ermənistan dövlət olaraq bunun nəinki qarşısını almır, hətta onları birbaşa və dolayısı şəkildə dəstəkləyir, bununla da 1965-ci ili Konvensiyasının tələblərini pozur.

Rusiya 3+3 formatının ən yaxın zamanda işə salınmasını təxmin edir

Rusiya Cənubi Qafqaz üzrə 3+3 formatının (Azərbaycan, Rusiya, Türkiyə, İran, Ermənistan, Gürcüstan) ən yaxın zamanda işə salınmasını təxmin edir. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirdiyi brifinqdə deyib.

O, məsləhətçi regional mexanizmin yaradılması ideyasının Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təklif edildiyini xatırladıb.

"Bildiyiniz kimi, Rusiya bu təşəbbüsü dəstəkləyib. Biz, çoxtərəfli regional əməkdaşlığın inkişafının bu formatdakı bütün iştirakçıların maraqlarına tam cavab verdiyinə əsaslanırıq. Fikrimizcə, bu mexanizmin işə salınması dövlətlərarası münasibətlərdə inamın artırılması, mövcud ziddiyyətlərin tənzimlənməsi və regionun iqtisadi, nəqliyyat və humanitar potensialın aşkar edilməsinə kömək edərdi", - deyə M.Zaxarova bildirib.

Infeksionist xəbərdarlıq etdi: Yoluxmalar artmağa doğru gedəcək!

"Hazırda ölkəmizdə növbəti epidemik alovlaşma başlayıb. Yəni, növbəti dalğa artıq başlayıb. Yoluxmalar artmaqda davam edir". Bunu SİA-ya açıqlamasında həkim-infeksionist Vüqar Cavadzadə deyib. Onun sözlərinə görə, bunun əsas səbəbi məktəblərin, məktəbəqədər təhsil müəssisələrin, universitetlərin, metronun və digər kütləvi tədbirlərin açılmasına icazənin verilməsidir. Bu məsələ keçən aydan proqnozlaşdırılırdı və gözlənilirdi. Ona görə də, hazırda yoluxmalar artıb.

Vüqar Cavadzadə bu barədə fikirlərini belə izah edib: "Bundan sonra da yoluxmalar artmağa doğru gedəcək. Növbəti həftələrdə yoluxmalar indikinə nisbətən daha da artıq olacaq. Amma ümumən baxanda epidemik vəziyyət stabildir və nəzarət altındadır. Hələki qorxulu bir vəziyyət yoxdur. Xəstəxanalarda kifayət qədər çarpayı sayı var. Laboratoriyaların, təcili tibbi yardımın hələki işi çətinləşməyib. Yükləmələr yoxdur. Onun üçün də hələki narahat olmağa ehtiyac yoxdur. Amma buna baxmayaraq əhali proflaktik tədbirləri davam etdirməlidir. Hər kəs özünü qorumalıdır".

Turqay Musayev

Azərbaycan dövləti şəhidlərimizin əziz xatirəsini heç vaxt unutmayacaq!

Qubada şəhid Nuran Mirzəyevin məzarı ziyarət olunub

YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov və partiya fəalları tərəfindən torpaqlarımızın azadlığı uğrunda canından keçərək, şəhid olan Quba rayonunun Qımıl kəndinin sakini Mirzəyev Nuran Akif oğlunun ildönümü ilə əlaqədar ailəsi və Qımıl kənd qəbiristanlığındakı məzarı ziyarət olunub, əziz xatirəsi ehtiramla anılıb. Xatırladaq ki, şəhidimiz Cəbrayıl və Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edərək, qəhrəmanlıq göstərib. Qəfildən partlayan mina Nuranın həyatına son qoyub. Nuran Mirzəyev Prezident İlham Əliyevin sərəncamlarına əsasən, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub. Qımıl kəndində Nuranın xatirəsi əbədiləşdirilərək, adına "Şəhid bulağı" kompleksi yaradılıb.

YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov bildirib ki, Azərbaycan dövləti şəhidlərimizin əziz xatirəsini heç vaxt unutmayacaq. Onlar Vətənimizin işğaldan azad olunmuş torpaqları uğrunda öz qanından, canından keçərək Şəhidlik zirvəsinə ucalıblar. Sonra Y.Abidov şəhid ailəsinin problemləri ilə maraqlanıb.

Nəzakət ƏLƏDDİNQIZI

YAP Şamaxı rayon təşkilatının fəalları şəhid Asif Azayevin il mərasimində iştirak ediblər

Şamaxı rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov, Milli Məclisin deputatı Tamam Cəfərova, YAP Şamaxı rayon təşkilatının sədr əvəzi Bəxtiyar Abbasov, hüquq-mühafizə orqanlarının nümayəndələri və rayon ictimaiyyəti İkinci Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalmış Azayev Asif Məhəmmədağa oğlunun şəhid olmasının ildönümü ilə əlaqədar təşkil edilmiş il mərasimində iştirak ediblər. Həmçinin, şəhidin məzarı ziyarət edilərək önünə gül

dəstələri düzülüb, ruhuna dualar oxunub. Sonra mərasim iştirakçıları şəhidin adının əbədiləşməsi məqsədilə yeni inşa olunmuş bulağın açılışında iştirak etmişlər.

Tədbirdə Şamaxı rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən bəhs edib. O, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda əsgər və zabitlərimizin göstərdikləri şücaətlərin hər birimizdə sonsuz iftixar hissi doğurduğunu qeyd edib.

Rəfiqə

Qusar rayonunda şəhid Rəsul Qazımətovun ildönümü keçirilib

Qusar rayonunun Qayakənd kəndində Vətən müharibəsinin şəhidi Qazımətov Rəsul Kamaləddin oğlunun ildönümü mərasimi keçirilib. Mərasimdə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov, YAP Qusar rayon təşkilatının fəalları, rayon icra hakimiyyətinin əməkdaşları, müəssisə rəhbərləri, şəhid ailəsinin üzvləri və kənd ictimaiyyətinin nümayəndələri iştirak edib. Anım mərasiminin iştirakçıları əvvəlcə şəhidin məzarını ziyarət edib və ruhuna dualar oxumaqla xatirəsini yad ediblər. Şəhidin ailə üzvləri ilə görüşü zamanı deputat Azər Badamov ailənin qayğıları ilə maraqlanıb və onları narahat edən məsələlərin tezliklə həll ediləcəyini bildirib. Şəhidin atası Kamaləddin Qazımətov onlara göstərilən qayğı və diqqətə görə, Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Qeyd edək ki, şəhid Rəsul Qazımətov müharibədə göstərdiyi fədakarlığa görə, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görülüb.

Nəzakət ƏLƏDDİNQIZI

YAP Şabran rayon təşkilatında "Şəhid ailələrinə qayğı" aksiyası davam edir

21 oktyabr 2021-ci il tarixdə YAP Şabran rayon təşkilatının nümayəndələri Vətən müharibəsi şəhidi Babayev Sahil Coşqun oğlunun şəhid olmasının il dönümü günündə ailəsini ziyarət edib,qayğıları ilə maraqlanıblar. Şabran rayon Ceyranlı kəndində şəhidin əziz xatirəsinə həsr olunmuş bulaq abidə kompleksinin açılışında YAP Şabran rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən Mehdi Balabəyov, YAP Şabran rayon təşkilatının əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir. YAP Şabran rayon təşkilatında bundan sonra da "Şəhid ailələrinə qayğı" aksiyası davam edəcək.

Allah şəhidlərimizə rəhmət eləsin.

Rəfiqə

YAP Səbail rayon təşkilatının fəalları şəhidin barelyefinin və büstünün açılışında iştirak ediblər

YAP Səbail rayon təşkilatı Vətən müharibəsində şəhid olan Məmmədli Cəmil Habil oğlunun Səbail rayonu 163 nömrəli tam orta məktəb tərəfindən hazırlanan barelyefin və büstün açılış mərasimində iştirak edib. Oktyabrın 20-də Səbail rayonu 163 nömrəli tam orta məktəbdə Vətən müharibəsində şəhid olmuş Məmmədli Cəmil Habil oğlunun əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Səbail Rayon İcra Hakimiyyəti və Səbail rayonu 163 nömrəli tam orta məktəb tərəfindən hazırlanan barelyefin və büstün açılış mərasimi keçirilmişdir.

Tədbirdə YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev və aparat əməkdaşları iştirak etmişlər. Vətən müharibəsində Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Məmmədli Cəmil Habil oğlu döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur Döyüşçü" medalları ilə təltif olunmuşdur. Şəhid Cəmil Məmmədlinin ailə üzvləri şəhid ailələrinin, qazilərimizin, hərbçilərimizin ölkə başçısı cənab İlham Əliyevin, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın və Yeni Azərbaycan Partiyasının hər zaman diqqət və yüksək qayğısı ilə əhatələndiklərini bildirmişlər.

Rəfiqə

Bu gün ömrü dastana dönmüş Xudayar Yusifzadənin şəhadətə qovuşmasından bir il ötür

Azərbaycanın son 30 ildə torpaqları şəhid qanı ilə suvarılıb. Şəhid qanı ilə suvarılan torpaq ən müqəddəs torpaqdır. Cadar-cadar olmuş torpaqlara nəfəs, can gəlir. Bu torpağa nə qədər şəhid qanı tökülüb. Yaşından asılı olmayaraq, bu torpaq uğurunda şəhid olub və ayaq qoyduğumuz hər qarışın müqəddəsliyini dərk etməliyik. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun rəşadətli qələbəsi şəhidlərimizin qanını yerdə qoymadı. Qisas qiyamətə qalmadı. Əlbəttə ki, canını vətən torpağının işğaldan azad olunması yolunda sipər edən vətən oğulları böyük igidlik, şücaət göstərərək, düşmənə qalib ölkənin ölümün gözünə dik baxan oğullarının vətənpərvərliyini göstərə bildilər. Hər bir insan üçün ən ali bir hissdir Vətən sevgisi, torpaq məhəbbəti. Vətənsiz millət, millətsiz isə Vətən ola bilməz. Bəli, Azərbaycanın bu torpağa, Vətənə Ana deyən övladları var. Elə 44 günlük Vətən müharibəsində şəhid olan minlərlə oğullarımız kimi. Adları dillərimizdə dastan olan igidlərimiz - şəhadətə qovuşan şəhid oğullar. Hər birinin həyatı bir hekayədir, dastandır. Qəhrəmanlıq dastanı.

Dumanlı dağların başında durdum
Dumandan özümə bir xeymə qurdum.
Keçdi xəyalımdan öz gözəl yurdum
Dumanlar başında duman göründü
Duman göründü...

Bu misralar səsləndikcə uzaq bir dünyaya boylanırsan. Sanki qeybdən gələn bir səsin sehrinə düşüb, vətən sevgisində yoğrulmuş bir dünya ilə baş-başa qalırsan - Xudayar dünyası ilə. 22 illik ömrünə bir il əvvəl ötən ilin bu günü vida deyərək, şəhid olan vətən oğlu. Şücaəti ilə adı əfsanələşdi. Belə bir Azərbaycanın qəhrəman oğlu bir neçə gün ərizində xalqının sevilən bir qəhrəmanına çevrildi. Hər kəsə nəsib olmayan şəhidlik zirvəsinə yüksəldi. "Vətən arzusuyla nəğmələr qoşdum, Tufanlar qarşımda dastana döndü", - deyə oxuyan Xudayarın od- alov, atəş içində ömrü dastana çevrildi. Şəhidliyi ömür payı olan Xudayarın döyüş yolu, göstərdiyi şücaət bu gün hər bir gəncə örnəkdir. Bu gün onun ömür yolunu vərəqləyirik: Xudayar Müslüm oğlu Yusifzadə. 15 iyul 1998-ci ildə Bərdə şəhərində dünyaya gəlib. Atası Bərdənin tanınan qarmon ustası Müslüm Yusifoğlu, anası - Rada Yusifzadə isə evdar xanım idi. Ailədə dörd uşaq olublar - üç qardaş və bir bacı. Tale elə gətirib ki, Xudayar Yusifzadənin doğumundan 24 gün sonra atası vəfat edib.

Xudayar Yusifzadə 2004-2015-ci illərdə Bərdə şəhərində Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində təhsil alıb. 2016-2018-ci illərdə Dövlət Təhlükəsizliyi Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Daha sonra isə o, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edib və "gizir" hərbi rütbəsi alıb.

2020-ci ilin Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra öz istəyi ilə Bərdə rayon Hərbi Komissarlığına müraciət edib. Gözünü dünyaya açan zaman məkan olaraq ilk gördüyü Vətən torpağı olan Xudayar məqam yetişən kimi onun yolunda ölümə belə hazır olduğunu könüllü olaraq ordu sıralarına yazılmaqla göstərdi. Vətən babalarımızdan, əcdadlarımızdan bizə qalan yurd yerimizdir. Əsgər isə Vətən əmanəti, yurd əmanətidir.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının giziri olan Xudayar 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı əvvəlcə Füzuli rayonunda sərhəd məntəqəsində xidmət edir, daha sonra isə Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xudayar Yusifzadə oktyabrın 22-də Zəngilan döyüşləri zamanı Ağbənd istiqamətində şəhid olub. Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə orden və medallarla təltif olunub. Belə ki, Xudayar Yusifzadə ölümündən sonra "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Ölkəmizin hər bir yerində Vətən torpaqlarının azadlığı uğrunda canından keçmiş şəhidimizin xatirəsi uca tutulur. Azərbaycanda şəhidlik hörmət və ehtiramın ən ali məqamı səviyyəsinə ucalıb. Bu gün Bərdə şəhərinin Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində Xudayarın büstü qoyulub. İndi bu məktəbə gələn hər bir insan onun böyük bir məslək yolunda şəhid olduğunu biləcək və keçdiyi həyat yolu gələcək nəsil tərəfindən zaman-zaman öyrəniləcəkdir.

Qısa bir ömür yolunda ən ali zirvəyə yüksəldi. Şəhidlik zirvəsində xalqımız tərəfindən tanındı və sevildi. "Xudayar təsnifi" ilə fenomenə çevrildi. Sanki bu mahnıya yeni ömür caladı - şəhid Xudayar ömrü. Özü kimi mahnı da əfsanəviləşdi. Ölümündən 2 gün əvvəl Əliağa Vahidin "Vətən yaxşıdır" şeirinə yazılmış mahnını ifa etdi və ona yeni bir nəfəs verdi. Elə bir nəfəs ki, hər bir zaman dillendikcə ruhları oyadacaqdır. Sanki mahnı yenidən yazıldı və mahnının sözləri böyük bir sevgisi ilə Vətən aşiqinin dili ilə yoğruldu. Hərdən insan təəccüblənir ki, illərlə ifa olunan bu təsnifin nəyə görə məzmununa bu qədər dərindən varmırdı. Səs, ifa, görkəm və ən sonda vətənə bağlı ömrün şəhadəti "Xudayar təsnifi"ni bizlərin qəlbində əbədiləşdirdi. Mahnı oxunanda insan ruhu başqa bir dünyaya qovuşur. Mahnıya "Xudayar təsnifi"nin verilməsi vətənin şəhid oğluna olan diqqət idi. Ona olan böyük sevgi idi. Xudayar adının bir musiqidə əbədiləşməsi idi. Xudayar Yusifzadənin ifasında "Vətən yaxşıdır" təsnifi yeni oranjemanda təqdim olundu. Əlbəttə ki, bir musiqidə deyil, bütöv bir xalqın qəlbində yuva qurdu Xudayar.

Deyirlər bülbülə çəmən yaxşıdır
İnsançün laləzar vətən yaxşıdır.
Vahid, sorma vətən nədən yaxşıdır?
Adı gəlcək könlüm xəndan göründü
Xəndan göründü...

Bəli, bu gün minlərlə şəhidimiz kimi Xudayarın da ruhu şaddır, xəndandır. İşğaldan azad olunan torpaqlarımızda tökdükləri qan ilə işğalda olan torpaqlarımızı azad etdilər. Bu gün qan ilə suvarılmış torpağımızda yeni fidanlar böyüyəcək. Torpağı sevəcək və Xudayar kimi oğulların davamçıları olacaqlar. Xudayar bir evin, bir obanın deyil, Azərbaycan övladıdır. Bu gün ölümündən bir il ötür. Ruhun şad olsun, Xudayar. Allah rəhmət eləsin!

Nəzakət ƏLƏDDİNQIZI

ARAŞDIRMA

Avtomobili qadınlar, yoxsa kişilər yaxşı idarə edir?

Qadınların pis sürücü olduğuna dair əsassız və birmənalı qarşılanmayan baxış var. Qadın sürücü qəzaya düşəndə xəbərlərdə "Qadın sürücü qəza keçirdi" deyilir. Amma kişi sürücü qəza törədərkən onun kişi olduğunu bildirməyə ehtiyac yoxdur. Elmi araşdırmalara görə, qadınların sürücülükdə kişilərdən daha zəif olduğu hissələr var, ancaq kişilərdən daha güclü olduqları yerlər də var.

İki cinsin maşın sürməsinin səbəbi təkamül biologiyası ilə izah olunur. Kişi və qadın arasındakı fiziki fərqlər sürücülük bacarıqlarında düşündüyünüzdən daha böyük rol oynayır. Kişi hormonu testosteron sürücülük qabiliyyətinə çox güclü təsir göstərir.

Yaxşı avtomobil idarə etmək üçün güclü vizual emal bacarıqlarına malik olmalısınız. Testosteron kişilərdə məkan məlumatlılığını artırır və dayanacaq kimi işlərdə onlara daha çox üstünlük verir. Məsafəni, ətrafdakı obyektləri və simvolları daha yaxşı başa düşməyə yardım edir. Bu şəkildə yol şəraiti daha tez şərh olunur. Tədqiqatçılar müəyyən görmə qabiliyyətlərini itirməyə başlayan yaşlı kişilərin testosteron dozası qəbul etdikdə vizual işləmə sürətlərində artım yaşadıqlarını təsbit etdilər. Buna görə testosteronun payı olduqca böyükdür.

Yenə də bəzi tədqiqatlar göstərdi ki, yüksək testosteron səviyyələri avtomobillərə və ya yolda cisimlərə çırpılmadan sürə bilmək üçün həyati əhəmiyyət kəsb edən məkan fərqindəliyini artırır.

Testosteronun mənfi cəhətlərini də nəzərə almaq lazımdır. Bu hormonun təcavüzlə əlaqəli olduğunu bilirik. Testosteron kişiləri avtomatik olaraq təcavüzkar etməz, ancaq kişi sürücülərin daha çox risk almasına və özünə güvənməsinə səbəb ola bilər.

Testosteron səviyyəsinin ən yüksək illər olduğu üçün 20-35 yaşlarında kişilər olan gənclərin avtomobil qəzasında daha çox ölməsinin səbəbi budur. Buna görə də testosteron bəzən bir üstünlük, bəzən də mənfi cəhət ola bilər.

Testosteron kimi, estrogen də avtomobil idarə etməyə təsir edə bilər. Estrogen, qadınların avtomobil idarə edərkən kişilərdən daha yaxşı konsentrasiya etməsinə imkan verir.

Sürücülərin bir anlıq uzaqlara baxması nəticəsində baş verən qəzalar olduqca çoxdur. Həmin bu "diqqət" mövzusunda qadınların üstünlük təşkil etməsi estrogen konsentrasiyasını artırır. Qadınlar asanlıqla diqqətini yayındırmır, qarşıdakı yola daha çox diqqət yetirirlər.

Yaxşı sürücü olmaq üçün yaddaş da mühüm rol oynayır. Marşrutu xatırlamaq, çatma vaxtı kimi elementlər yaddaşla əlaqədardır. Araşdırmalar göstərir ki, qadınlar kişilərə nisbətən daha yaxşı yaddaşa malikdirlər və yaşla əlaqədar yaddaş itkisi qadınlarda kişilərdən daha gec başlayır. Bəlkə də "gələndə çörək al" deyilən bir adamın çörəksiz evə gəlməsinin səbəbi bu vəziyyətlə bağlıdır.

Kişi testosteron hakimiyyəti ilə qadın estrogen dominantlığı arasındakı ən böyük fərq davranışdır. Çox vaxt estrogenləri empati ilə əlaqələndiririk. Qadınların sevgi nümayiş etdirməsinin yeganə səbəbi bu deyil, amma bu, mühüm rol oynayır. Bu səbəbdən qadın sürücülər daha çox yol qaydalarına əməl edirlər, digər sürücülərlə mübahisə etmirlər və lazımsız risklərə getmirlər.

Kişilər daha yaxşı istiqamət anlayışına malikdirlər, qadınlar isə marşrutları daha yaxşı xatırlayır. Bu səbəbdən kişilər asan yol istəmirlər, buna yeganə səbəb eqo deyil.

Beynin bu hissəsi insanlara zehni xəritələr yaratmağa və itmədən şəhər küçələrində gəzməyə imkan verir və araşdırmalar göstərdi ki, kişilər maşın sürərkən beynin bu hissəsindən daha çox istifadə edirlər.

Digər tərəfdən, qadınlar marşrutları və obyektləri daha yaxşı xatırlayır, bu da marşrutu daha yaxşı xatırlamağa imkan verir. Qadınlar, işləmə yaddaşında əhəmiyyətli rol oynayan frontal loblarında daha çox əlaqəyə sahib olduqları üçün bundan istifadə edirlər.

Kişilər daha duyğularla, xüsusən də mənfi (qəzəb, qorxu, təcavüz) ilə əlaqəli bir badam şəkilli beyin quruluşuna malikdirlər. Təhlükəli və ya stresli vəziyyətlərə məruz qaldıqda, beyin "işıq saçır" və kişi sürücüləri hərəkətə keçməyə təşviq edir. Bu, sürücüyə qəzəbli reaksiya vermək kimi vəziyyətlərə səbəb ola bilər.

Qadınlarda kişilərə nisbətən daha sürətli olqunlaşan daha böyük bir prefrontal korteks var. Beynin bu hissəsi insanlara duyğularını və davranışlarını tənzimləmək qabiliyyətini verir. Bu, "hər şeyi düşünərkən" hərəkətə keçən hissədir. Bu, qadınların kişilərdən daha az risk aldığını izah edir, çünki bu bölgə-

nin sahəsi daha böyükdür.

İngiltərədəki bir araşdırma, qadın sürücülərin sürücülük vəsiqəsi imtahanından keçmə ehtimalının kişilərə nisbətən daha yüksək olduğunu və yaş artdıqca bu nisbətin artdığını göstərdi.

Bu araşdırmanın nəticələri:

17 yaşlı qadın sürücülərin sürücülük vəsiqəsi testindən keçmə ehtimalı kişilərə nisbətən 7% çoxdur.

Bu nisbət 20 yaşında imtahan verən qadınlar üçün 15% -ə yüksəlir.

30 yaşına çatanda qadınlar kişilərdən 25% daha çox uğursuz olurlar.

35 yaşında bu rəqəm 41%-ə yüksəlir.

50 yaşında qadınlar, bu yaşdakı kişilərə nisbətən 50% daha çox uğursuz olurlar.

Sürücülük vəsiqəsi imtahanında kişilər daha çox uğur qazanırlar, ancaq qadınlardan daha çox qəza keçirirlər.

Kişilər qadınlara nisbətən ömürlük sığorta haqqı olaraq 15.000 dollar daha çox ödəyirlər. 25 yaşdan kiçik kişilər bu mövzuda liderlik edirlər. Bunun səbəbi kişilərin, xüsusən də, gənclərin maşın sürməkdə aqressiv olmalarıdır.

Vizual, məkan və motor emalı kimi idrak üstünlüklərinə baxmayaraq, kişilərin ölümcül və ya ciddi qəzalara daha çox mə-

ruz qalmaları ehtimal olunur. Kişilərin də yol nişanlarını, işıqlarını pozaraq, sürət həddini aşma halları daha çox olur. Kişilər qadınlardan iki dəfə çox yol hərəkəti qaydalarını pozurlar. Başqa sözlə, qadın sürücünün idarə etdiyi avtomobildə olsanız, özünüzü daha təhlükəsiz hiss etməlisiniz.

Qadınlar maşın sürərkən mesajlara kişilərdən 5% daha çox cavab verir.

Qadınların sükan arxasında qəlyanaltı etmək ehtimalı kişilərə nisbətən 11% daha çoxdur.

Nəticədə həm kişilər, həm də qadınlar maşın sürərkən təhlükəli vərdişlərə qapıla bilərlər. Fərq onların etdiklərindədir.

SİA məsələ ilə bağlı araşdırma apararaq nəqliyyat eksperti, psixoloq və şəhər sakinlərinin fikirlərini öyrənib.

Psixoloq Aytən Ələkbərova: "Təbiidir ki, istər qadınlar, istərsə də kişilər avtomobil idarəetmədə, yəni, müdafiə sektorunda dürüstlüyünün təmin edilməsinə mütləq şəkildə diqqət etməlidir. Burada söhbət avtomobili idarə edərkən nəyə görə məhz dürüstlüyü biz önə çıxarırıq? Ön yarğıda bunu ona görə qeyd edirik ki, sabah hər hansısa bir avtomobil digər bir avtomobillə qəza şəraiti törəndiyi zaman mütləq şəkildə hər kəs özünün dürüst olduğunu sübuta yetirmək istəyir. Amma bəzən də baxırıq ki, bu çox lazımsız bir şeydir.

Ardı Səh. 13

Avtomobili qadınlar, yoxsa kişilər yaxşı idarə edir?

Əvvəli Səh. 12

Çünki şükürlər olsun ki, artıq texnologiya o qədər gözəl inkişaf edib ki, hər bir tərəf kameralardır. Bəzən düzdür olur, hətta bu yaxınlarda mənim öz başıma da gələn bir hadisə də olmuşdu ki, yəni avtomobili bir bəy vurub qaçmışdı. Amma buna baxmayaraq, hələ ki, o tapılmayıb.

Digər tərəfdən isə avtomobil idarəetmədə qadın və yaxud kişinin daha gözəl idarə etməsindən söhbət gedirsə, burada qadın-kişi faktoru yoxdur. Hər ikisi eyni əllərdir, eyni ayaqdır, eyni gözdür və düşünən beyindir. Yəni, burada qadın-kişi faktorunu kənara qoymalıyıq.

Təbiidir ki, elə bir manevrlər var ki, bizim bəylərimizin etdiyi o manevrləri mən, qadın olaraq haradasa öz xanımlığıma yaraşdırıb etmərəm. Amma qəza şəraiti törənən vaxt artıq burada xanımlıq və bəylik kənarda qalır. Deməli, idarəetmədə daha çox sən diqqətli olmalısan ki, həmin anda olacaq törənəcək qəza vəziyyətindən çıxmağı bacara biləsən. Bunun üçün də mütləq şəkildə insanın birinci psixoloji immuniteti güclü olmalıdır. Bütün əsəb sistemi buna imkan yaratmalıdır.

Bəzən görürsünüz ki, 19 yaşlı bir bəydir. 19 yaşlı gənclikdir, beyni qandır. Amma görürsünüz ki, hər hansısa bir hadisə baş verdi və neçə-neçə insanların evində göz yaşları oldu, neçə-neçə insanlar dünyasını dəyişdilər və hal-hazırda bədənlərində olacaq travmalardan əziyyət çəkirlər. Sonu necə olacaq hələ ki, bəlli deyil. Deməli, burada faktor qadın-kişi yox, düzgün oxuyub prava almaqdır. Yəni, sürücülük vəsiqəsini almaqdır. Bunun üçün də bizim çox gözəl təlim mərkəzlərimiz var. Bunlara sürücülük məktəbləri deyilir. Eyni zamanda, da yəni hal-hazırdaki təlim kursları ayrıca, fərdi şəkildə hər kəs gedib hazırlaşa bilər. O zaman biz, bu qadın-kişi faktorlarını kənara qoyacağıq və daha gözəl sürücülər yetişəcək ki, ən azından yolda olacaq yol mədəniyyətini, tıxac mədəniyyətini psixoloji olaraq sağlam şəkildə beyinlərində sürdürə bilsinlər ki, yəni bu tıxacdır, "yarım saat öncə çıxa bilərəm, 40 dəqiqə qabaq çıxa bilərəm, ola bilər ki, işdə gedərəm 10 dəqiqə tez gözləyərəm, amma hər hansısa bir təhlükədən uzaq olaram".

Burada düşünən beyindir bunun qadın-kişi olmağının fərqi yoxdur. Allah-təala bir tək fərq olaraq bizi bir-birimizdən ayıran fərqlər müəyyən orqanizmimizdə olacaq müxtəlif orqan dəyişikliyi ola bilər. Yoxsa ki, düşünən beyin qadında da güclü ola bilər, kişilərdə də. Təbiidir ki, kişilərin sağ və sol yarımkürəsi qadınlara nisbətən daha çox inkişaf edib. Məsələn, qadınlarda bir yarımkürə inkişaf edirsə, kişilərdə hər iki yarımkürə inkişaf edir və avtomobil sürən qadınların da əksəriyyəti psixoloji testdən keçən zaman onların sağ və sol beyin yarımkürələrinin hər ikisi işlək vəziyyətdə olduğuna görə onlar bunu idarə edə bilirlər. Ona görə də gəlin daha diqqətli olaq. Təbiidir ki, amma bəylərimizin sürdüyü avtomobil bir balaca da olsa qadınlardan üstün olur".

Nəqliyyat eksperti Elməddin Muradlı:

"Qadın-kişi sürücülər arasında müqayisə gender balansı baxımından düzgün deyil. Amma hər iki tərəfin özünün spesifik xüsusiyyətləri və spesifik yanaşmaları var. Avtomobillə davranış, avtomobilə texniki qulluq, idarəetmə və s. kimi məsələlərdə hər iki tərəfin özünün yanaşması var və ümumilikdə baxanda düzdür, kişi sürücülər daha çoxdur. Qadın sürücülərimizin sayı təxminən 50-60 min arasıdır. Yəni, rəsmi sürücülük vəsiqəsi alanlardır. Təbii ki, onların hamısı bu dəqiqə maşın sürmür. İntizamlı qadın sürücülərimiz çoxdur. Amma manevr, sürət, parklanma, geriyə hərəkət məsələsində xanım sürücülər nədənsə çox əziyyət çəkir. Demək olar ki, əksəriyyəti parklanmanı, geriyə hərəkəti düzgün yerinə yetirə bilmir. Manevr qaydalarıdır, zolaqlar üzrə hərəkətdir bu məsələlərdə əziyyət çəkirlər, gec qavrayırlar.

Digər tərəfdən həm parklanmada, həm manevr məsələsində qayda pozuntularına çox yer verdikləri üçün maşınları tez-tez qəzalı vəziyyətə düşür. Bu gün xanım sürücülərin idarə etdiyi avtomobillərə nəzər saldıqda elə mənzərə təxminən bizə aydın olur. Əksəriyyətinin arxa tərəfi, yan qapıları sürtülmüş, əzilmiş vəziyyətdədir. Yəni, artıq o sürücü haqqında müəyyən təəssüratlar yaranır. Xanım sürücülər arasında məsələn, təhlükəsizlik kəmərindən istifadə edənlər çoxdur, yəni ilkin təcrübələrdən görürsünüz ki, təhlükəsizlik kəmərinə maraqlıdılar, çünki daha məsuliyyətli yanaşmağa çalışırlar. Avtomobillərə texniki qulluq məsələsində biraz zəifdirlər. Məsələn, avtomobilin elə detalı var ki, onu bilmirlər. Adicə şüşəsilənlərin suyu hardan dolur və yaxud da yağdəyişmə, yağa baxmaq və s. məsələlərdə çox zəifdilər və heç öyrənmək də istəmirlər. Əslində, mən çox istərdim ki, bunu öyrənsinlər. Çünki həyat yoldaşına, qardaşına, atasına, sevgilisinə arxayın olur ki, o baxacaq. Amma bir də görürsünüz ki, elə bir situasiya yarana bilir ki, orda özü-özünə çarə tapmalıdır, vəziyyətdən çıxmaq üçün bir iş görməlidir. Amma bəzən görürsünüz ki, bu alınmır. Sürət həddinə gəldikdə məsələn, kişi sürücülər daha çox sürət həddini aşmağa görə cəzalanırlar, amma xanım sürücülərdə bu göstərici biraz aşağıdır. Çünki xanım sürücülər yüksək sürətə maraqlı deyillər. Spirtli içkinin, narkotik vasitələrin təsiri altında daha çox kişilər maşın sürür. Amma çox təəsüf ki, son vaxtlar spirtli içkinin təsiri altında maşın sürən qadınlara, narkotik aludəçisi olan qadın sürücülərə də rast gəlirik. Əvvəl tək-tük olurdusa, bu gün daha çox rast gəlinir, daha geniş yayılmış bir hala çevrilib. Bu da çox təhlükəli və təəssüf doğuran bir haldır. Ən azından bizim mental xüsusiyyətlərimiz və s. məsələlər göz önünə gələndə bu hallar bizdə təəssüf doğurur ki, bizim xanımlarımız abırlı, ismətli, ailəcanlı olur.

Spirtli içki qəbul etmək və bu vəziyyətdə sükan arxasında olmaq çox təhlükəlidir. Bütün dünya alimləri bunu deyir ki, qadınların sükan arxasında reaksiyası kişilərə nisbətən saniyənin üçdə biri qədər gecikir və bu zaman və bu məsafə kifayət qədər qəza baş verməsi üçün kifayət edəcək bir zamandır. Yəni, qadınlar kişilərə nisbətən hadisələrə daha gec reaksiya verirlər. Tutaq ki, qəzadır, sən bunu görürsən, qavrayırsan, dərhal ayağını tormoza atırsan və kişilərə nisbətdə qadınlar bu funksiyanı yerinə yetirməkdə gecikirlər. Qadınlar daha tez panikaya düşürlər, özlərini itirirlər, situasiyadan çıxış üçün daha çevik ola bilmirlər. Bu məsələləri bilə-bilə spirtli içki, narkotik vasitə istifadə edib sükan arxasına keçmək isə o deməkdir ki, ümumiyyətlə, reaksiya sıfır vəziyyətindədir, çox aşağı həddədir və bu da yol-nəqliyyat hadisələrinə, kobud qayda pozuntularına gətirib çıxarır, başqaları üçün təhlükəyə səbəb olur.

Ona görə düşünürəm ki, bu məsələlərlə bağlı ciddi təbliğat işi aparılmalıdır, elmi əsaslı məqalələr, təbliğat xarakterli materiallar ictimailəşdirilməlidir. Televiziyalarda, radiolarda, elektron kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə geniş şəkildə yayılmalıdır, təhlil edilməlidir. Bunu siz, mən edirik. Mən dedim siz də yazırsınız. Amma bunu aidiyyəti qurumlar etsə daha faydalı olar. Sosial çarx şəklində mütəxəssislərin iştirakı ilə bir ictimai müzakirələrin keçirilməsi, canlı nümunələri cəmiyyətə təqdim etmək və s. kimi bunları etmək lazımdır".

Məsələyə şəhər sakinləri də öz fikirlərini bildirib:

Şəhər sakini Nicat Ələkbərov: "Məncə, sürücülük qabiliyyəti cinsiyyətə əsaslanan bacarıq deyil. Bu, tamamilə təcrübə və məlumatlılıq məsələsidir. Təbii ki, hər cinsin özünəməxsus faktorları var ki, bu özəlliklərin az da olsa bu sahədə rolu var. Məsələn, kişilər bəzi vəziyyətlərdə qadınlara nisbətən daha tez qərar verir, daha riskli davranır. Qadınların üstünlüklərindən biri isə tez düşünmə və ətraflı analiz bacarıqlarının olmağıdır. Amma, ümumilikdə cinsindən asılı olmayaraq, istənilən insan bacarığı və bir müddət sonra təcrübəsini birləşdirərək yaxşı sürücü ola bilər".

Şəhər sakini Aliyə Qarayeva: "Mənim fikrimcə, kişilər qadınlara nisbətən daha dəqiq, daha diqqətli və rahat şəkildə avtomobil idarə edirlər. Qadınların əksəriyyəti yol hərəkəti qaydalarını yaxşı bilmir, kor-koranə şəkildə avtomobil idarə edirlər. Onlar gərək yol hərəkəti qaydalarını yaxşı bilsinlər, sürət həddini aşmasınlar, digər sürücülərə və piyadalara da çətinlik yaratmasınlar. Kişi sürücülərin əksəriyyəti düzgün şəkildə avtomobil idarə edirlər. Xanımların da düzgün avtomobil idarə edənləri var, amma çox azdır. Xanım sürücülərin avtomobil idarə etməsinə də çox yaxşı münasibətim var. Amma əgər o xanımın yol mədəniyyəti, davranış mədəniyyəti varsa, avtomobili düzgün idarə edirsə, niyə də olmasın?! Bəli, çox yaxşı ki, müasir dövrdə qadınlar da avtomobil idarə edir".

Şəhər sakini Aytac Ali: "Məncə, qadınlar maşını daha ehtiyatlı sürürlər. Mən də bir xanım olaraq, gələcəkdə maşın sahibi olmaq istəyirəm. Açığı, tərəddüdlərim var. Lakin inanıram ki, əksər qadınlar kimi bunu bacara bilərəm. Bu istəyimin hardan gəldiyini soruşsaz, onu deyə bilərəm ki, ilk olaraq can rahatlığı üçün istəyirəm. Digər bir səbəb isə, sükan arxasında qadın sürücü gördükdə, çox xoşuma gəlməsidir. Zənnimcə, maşın qadınlara kişilərdən daha çox yaraşır. Amma təəssüflər olsun ki, bir mənfi xüsusiyyətimiz var, ona səliqəli baxa bilmirik. Kişilər bizdən fərqli olaraq avtomobillərinə gözbəbəyi kimi baxıb, özən göstərirlər".

Şəhər sakini Nərgiz Xəlilli: "Məncə, mübahisəli mövzudur. Qadınlar yaxşı sürmür fikri artıq köhnəlib. Artıq kifayət qədər yaxşı maşın sürən qadınlar var və bu sevindirici haldır. Ümumiyyətlə, hər hansı bir işi kişi və ya qadın olaraq bölünməsinin tərəfdarı deyiləm. Məncə, hər kəs öyrənə bilər".

Şəhər sakini Aysun Məmmədova: "Mənim fikrimcə, qadınlar daha yaxşı sürücü ola bilir. Çünki məsuliyyətli davranırlar. Yol hərəkəti qaydalarına həmişə əməl edirlər, ehtiyatlı davranırlar. Qəza törədən qadınların sayı məncə barmaqla sayılacaq qədər azdı. Regionlarda avtomobil idarə edən qadınlar az bəlkə də yox səviyyəsində olsa da, mərkəzdə kifayət qədər çoxdur. Qadın hər şeyi bacarmalıdır. Bir müəllimim var idi. Müasirliyə qarşı idi. Qızların saç rənginə, geyiminə, dırnaqlarına qarışırdı və bunun düz olmadığını deyirdi. Amma o belə qadının maşın idarə etməsinə qarşı deyildi. Deyirdi ki, kaş həyat yoldaşım bacarardı, uzun yola çıxanda növbəli şəkildə idarə edərdik. Yəni, bu yaxşı haldır. Qadın toxunuşu olan hər şey səliqəli görünür. Məncə nəqliyyatımızın da səliqəli, nizamlı görünməsi üçün qadın sürücülərə ehtiyac var".

Şəhər sakini Nüşabə Nəcməddinova: "Sürücülük haqqında əsas qaydalara kim bələddirsə, o, yaxşı sürücüdür. Həm qadınların, həm də kişilərin maşın sürməsi arzuolunandır. Qadın maşın sürə bilməz və ya bu iş onda alınmaz deyən hər kəs yanlış fikirdədir. Hər bir insanın azad yaşamaq haqqı olduğu kimi, öz iradəsi ilə istədiyi hər şeyi etməkdə də özgürdür. Məhz, buna görə qadınların da maşın sürməsində bir maneə yoxdur".

Şəhər sakini Türkan Məmmədova: ""Aslanın erkəyi, dişisi olmaz" deyimi ilə sözə başlasam, daha düz olar. Hər sahədə qadınların da öz yeri olduğunu görürük. Buna görə qadınların da maşın sürməsinə təəccüblənməmək lazımdır. Maşın sürməkdə kişilər çoxluq təşkil etdiyi üçün yaxşı maşın sürənlər kişilərdir deyilir. Lakin dediyim kimi qadınlarda isə səliqə, ehtiyatlılıq payı daha çox olur. Bunu demək olmaz ki, kişilər ya qadınlar yaxşı maşın sürür. Çünki kişilər güc göstərişində və s.kimi qadınlar isə daha çox ehtiyac və cəmiyyətdə gedən proseslərə görə istifadə edir. Nəyə görə belə dedim? Ona görə ki, övladı olan qadın övladını, ictimai nəqliyyatda aparmağa narahat olur. Yaxud kişilərin özləri həyat yoldaşlarını digər ictimai nəqliyyatdan istifadəsinə narahat olur. Buna görə qarşılıqlı anlaşmaq lazımdır. Heç kimi qınamaq olmaz. Bir sözlə, hər kəs özünə məsuliyyət daşıyır. Hər bir fərd empati yaradaraq maşın sürməlidir ki, heç kimin həyatına son qoyub, ailəsini söndürməsin. Ehtiyatlı olmaq öz əlimizdədir. Çalışaq cəmiyyətdə yaxşı maşın sürən sürücü statusuna malik olaq".

Ayşən Vəli

Perulu şərhçi:

"Ermənilərin tamahkarlığı iki xalq arasında sülhə mane olur"

Azərbaycanın işğaldan azad edilmiş bölgələrində olan Peru Jurnalistlər Federasiyasının vitse-prezidenti, tanınmış siyasi şərhçi Rikardo Sançez "Caliber" analitik mərkəzinə müsahibəsində Azərbaycan-Ermənistan münasibətləri və Qafqazda yaranmış vəziyyət haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.



- Bildiyimizə görə, bu yaxınlarda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində oldunuz. Zəhmət olmasa gördüklərinizlə bağlı təəssüratlarınızı bölüşün.

- Bəli, həqiqətən də Gəncə, Ağdam, Füzuli, Cəbrayıl və Azərbaycanın incisi- Şuşa şəhərində olmuşam. Qarabağ münaqişəsi haqqında ətraflı məlumat əldə etmək, mediada nə yazıldığını və danışıldığını öz gözlərimlə görmək- ermənilərin vandalizmi və Azərbaycanın həyata keçirdiyi və qələbə ilə bitirdiyi parlaq hərbi əməliyyat haqqında danışmaq mənim üçün maraqlı idi.

Qarabağ bölgəsində gördüklərimlə bağlı təəssüratlarımı, hətta sakitliklə sözlə ifadə edə bilmirəm. Sadəcə, dəhşətdir. Uzun illər ermənilər bu torpaqların qanuni varisləri olan azərbaycanlıların izini birdəfəlik silmək üçün Azərbaycanın işğal olunmuş şəhərlərini ən barbar üsulla məhv ediblər. Beləliklə, Azərbaycanın işğal olunmuş ərazilərini öz torpaqları kimi təqdim edərək bütün dünya ictimaiyyətini aldatmağa çalışıblar.

Müsəlman məzarlarını və mədəniyyətini təhqir ediblər, xan saraylarını, muzeyləri və teatrları dağıdıblar. İşlətdikləri cinayətlərin ən pisi, dinc şəhərləri bombardman etmək və Azərbaycanı qorxutmaq məqsədi ilə edilən bu kimi hücumlardır.

Gəncə və Bərdə sakinlərinə qarşı etdikləri vəhşilikləri hamımız bilirik. Təəccüblüdür ki, ermənilərin özləri hərbi konflikt zamanı beynəlxalq konvensiyalarla qadağan edilmiş silahlardan istifadə ediblər və sonra bu işdə Azərbaycanı günahlandırıblar.

Və onların Bakıya mina sahələrinin xəritələrini verməkdən imtina etməsi. Bütün bunlar birlikdə Azərbaycanın şəhərləri yenidən qurmasını və bir milyon məcburi köçkünün evlərinə qayıtmasını çox çətinləşdirir.

- Yuxarıda qeyd etdiniz ki, ermənilər Azərbaycanın işğal olunmuş ərazilərində hər şeyi vəhşicəsinə məhv ediblər. Sizcə, bunu niyə etdilər?

- Ermənilər bir daha bütün dünyaya xristian olmadıqlarını sübut etdilər, çünki İsanın davamçıları bunu heç vaxt etməzdilər. İslami olan hər şeyi məhv etməklə insanları bu ərazilərin azərbaycanlılara deyil, onlara məxsus olduğuna inandırmaq istədilər.

Ermənilərin ən əlverişli anda davranışlarını təsvir edən çox gözəl bir ifadə var: "Hər kəsi aldada bilərsən, amma özünü yox". Ermənilərin məqsədi Qarabağdakı Azərbaycan tarixini silmək idi.

Oran olan hər şeyi belə bir nifrətlə məhv etdilər, çünki daxilən hər zaman bunun onların torpağı olmadığını başa düşdülər, vəhşicəsinə davrandılar. Ancaq hər şey nə vaxtsa sona çatır. Beləliklə, erməni barbarlığının da sonu gəldi.

- Qarabağ münaqişəsi bitdi. Sizcə, ermənilərin azərbaycanlılarla sülh şəraitində yaşamasına nə mane olur?

- Ermənilərin tamahkarlığı və Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəməmələri hər zaman iki xalq arasında sülhə mane olur.

Problemi həll etməyin və harmoniya içində yaşamağın yeganə yolu, beynəlxalq hüquqa uyğun olaraq üçtərəfli bəyanatın bütün məqamlarını tam şəkildə yerinə yetirməklə sərhədləri delimitasiya etmək və demarkasiya etməkdir.

Ermənilər bütün etnik qruplara və dinlərə hörmətlə yanaşmağı öyrənməlidirlər. Yalnız bundan sonra bölgəyə inkişaf, firavanlıq və təhlükəsizlik gətirilə bilər.

Bilirsiniz, yenidən Azərbaycana qayıtmaq mənim üçün şərəf olardı. Qarabağın, dağılmış şəhər və kəndlərin bərpasını görmək, ölkənin mədəniyyəti haqqında daha çox məlumat əldə etmək, Heydər Əliyev Mərkəzini, Atəşgah Məbədini ziyarət etmək istərdim. Təəssüf ki, vaxt olmadığından hər şeyi görməyə vaxtım olmadı.

Elçin Bayramlı

AÇIQLAMA:

"Müxalifət xalqın qəzəbindən qorxmalıdır"

"Nə yazıqlar ki, bizim cəmiyyətdə hələ də siyasi müxalifətçilik mədəniyyəti formalaşa bilmir. Mən bütün siyasi müxalifət partiyalarını nəzərdə tutmuram. Son vaxtlar Azərbaycanda iqtidar-müxalifət münasibətlərində yeni, sivil canlanma var və bu, bizi sevindirir. Ancaq arxiv iyi verən elə müxalif qurumlar var ki, onların yenilənməsinə, liderliyin dəyişilməsinə böyük ehtiyac var". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında deyib.

T.Novruzov bildirib ki, Əli Kərimli, Əli Əliyev və Cəmil Həsənli kimilər meydan təfəkkürlü, siyasəti bazar, biznes gözündə görən adamların bu gün özlərini siyasi müxalif kimi cəmiyyətin gözünə soxmağa çalışanlar, nəhayət, bu xalqın qəzəbindən qorxmalıdırlar: "Xaricdəki anti-Azərbaycan qüvvələrin gözündə daha radikal imici qazanmaq və daha çox maliyyə əldə etmək üçün vətəndaşı olduqları ölkəyə qarşı şər, böhtan, qarayaxma yarışına girmək müxalifətçilik deyil. Bunun bir adı var, nankorluq! Artıq cəmiyyət də onların iç üzünü görür və sözlərinin də insanlara hər hansı təsiri yoxdur. İndiki çətin dönəmdə, dünyanın güc mərkəzlərinin Azərbaycana müxtəlif istiqamətlərdən təzyiq etməyə çalışdıqları bir zamanda bu cür fəaliyyəti davam etdirməklə onlar düşmən dəyirmanına su tökməyə çalışırlar ki, bunu da dəmir yumruq kimi möhkəmlənmiş cəmiyyət yaxşı görür. Məncə, bu siyasət dəllallarının Vətənin, millətin taleyini beynəlxalq bazara çıxarmaq cəhdlərinə qarşı qanunun bütün gücündən istifadə edilməlidir. Bu dövlət, bu Vətən heç kimin deyil, ölkənin vətəndaşı olan hər kəsindi. Hər kəs də onun taleyi üçün məsuliyyət daşımalıdır. Bu məsuliyyəti saya salmayanlara yerləri göstərilməlidir. Əminəm ki, xalq onlara yerlərini göstərəcək, necə ki, 28 ildir göstərir!"

Gülyanə

Təhmasib Novruzov

Ağıl problemi

Yaxşı bir el deyimi var. Deyir, allah insanlara hər şeyi yarımçıq verir, təkcə ağıldan başqa. Yəni yaradanın ən böyük "ədalət"i ağıl paylanışında görsənir. Ona görə yer üzündə yaşayan bir adam da tapa bilməzsiniz ki, desin mənim ağlım yarımçıqdı, çatışmazlıq var. Pulun, sağlamlığın, xoşbəxtliyin və sair, və ilaxırın yarımçıqlığından hamı gileylənir, amma ağılın yarımçıqlığından gileylənən görmədik, görmərik də.

İndi oxucum deyəcək ki, hamının bildiyini bura yazıb niyə vaxtımızı alır bu adam? Darıxmayın, deyəcəm hamının bildiyi bir həqiqəti yazıb qızıl kimi vaxtınızı niyə məşğul edirəm. Məsələ burasındadır ki, el arasında "devit be" (yəni doqquz b) deyilən psixoloji xəstələr də özlərini ağılsız hesab eləmirlər. Və hətta onlara bir balaca ağıl vermək istəyəndə az qalır vurub adamı öldürsünlər. Niyə? Çünki o da özünü hamıdan ağıllı hesab edir. Və ona elə gəlir ki, onun qandığı ən doğrusudu, əsl həqiqət onun bildiyidi, başqalarının bildiyi onun bildiklərindən azdı və ya yanlışdı.

Xülasə, ağıl məsələsindən o qədər danışdım ki, əsas mövzumuz yaddan çıxdı. Amma ona görə ağıl barədə uzun-uzadı moizə elədim ki, indi deyəcəklərim doğru-düzgün anlaşılsın. Deyəcəyim də odur ki, bizim bəzi-bəzi siyasilərimizə ağılı verəndə, deyəsən, yaradan bir az "xəsislik" edib, "ədalət"i pozub. Özlərini bu hakimiyyətə müxalif adlandıran bəzi siyasilər bu yarımçıq ağılla hələ bir "hakimiyyət uğrunda" mübarizə də aparırlar. Yəni indiki hakimiyyət pisdi, getsin, biz gələk! Çox əcəb, burda pis nə var ki? Azərbaycan demokratik ölkədi, hər kəsin də istəyi uğrunda mübarizə aparmaq haqqı var. Kim deyir ki, özünün daha yaxşı olduğunu sübut edən siyasi güc hakimiyyətə gəlmək iddiası irəli sürməkdə səhv edir? Baxın, "daha yaxşı olduğunu sübut edən" yazdım a... Amma daha yaxşı olduğunu hesab edən (məhz hesab edən) bəzi siyasilərin hələ heç nə sübut etmədən bu iddiaya düşməsi, sadəcə, allahın həmin "ağıl" paylanışında ədalətsizliyə məruz qalanlardı. Məşhur bir bədii obraz var: Don Kixot! Bu Don Kixot müəllim Dulsineyasına çatmaq üçün qabağına nə çıxırsa hamısını düşməni hesab edir və qılıncını sivirib üstünə hücum çəkir. Hətta su dəyirmanının pərlərini qılınclayır ki, sən mənim düşmənimsən. Bizim özünü indiki hakimiyyətdən daha yaxşı hesab edən bəzi müxaliflərimiz həmin Don Kixotun siyasi variantından başqa bir şey deyillər. Bunlar o qədər ağılsızdılar ki, Azərbaycanın Tarif Şurası deyilən bir qurum qazın, elektrikin qiymətlərində bir-iki qəpik artım edər-etməz, Don Kixot kimi, qılınclarını sivirdilər ki, ay dadi-bidad, bu hakimiyyət millətin düşmənidi, onları yıxıb, bizi gətirin!

Sonra da deyirsiniz ki, ağıldan niyə bu qədər moizə oxudum! Oxumayıb da, neyniym? Bunların ağılları ora qədər kəsmədi ki, o bir-iki qəpik artımın qarşılığında ölkə başçısı o boyda Sərəncam verdi ki, əhalinin sosial şəraitinin yaxşılaşdırılması üçün təkliflər verilsin. O boyda "tir"in əhəmiyyətini görməyib də, "qıl"ın zərərindən danışmaq ağılsızlıq deyil də, bəs nəmənədi? Hələ onu demirəm ki, bunların "pis" dedikləri bu hakimiyyət dünyanı qarşısına alıb otuz ildi inləyən torpaqlardan düşməni qovdu və elə bu günlərdə həmin 44 günün qələbə anlarını qeyd etməkdəyik. Yəni onlar o qədər ağıldan kasaddılar ki, bu böyüklükdə problemi rəşadətlə həll edən bir hakimiyyəti pisləməklə, guya xalqın da onlara inanacaqlarını hesab etdilər.

İndi yenə ağzıgöyçəklər deyəcəklər ki, müxalifətdi də, bunu niyə ağılsızlıq adlandırmalıyıq? Müxalifətdirsə, demək, hakimiyyəti tənqid etməlidir. Atam, mən demirəm ki, sinəsinə müxalifət nişanı taxıb, bəzi deputatlar kimi ağzına su alıb otursun. Əlbəttə deməlidi, əlbəttə tənqid etməlidi. Amma elə "hıx" deyən kimi, milləti küçələrə çağırıb, hakimiyyəti yıxmaq(?), onun yerinə keçmək (?)fikri ilə hərəkətə keçmək fikri, vallah ağılsızlıqdi, billah anormallıqdı. Biz də bu ağılsızlığın, bu anormallığın şahidləri olduq. Şahidi olduğumuzu demək də bəlkə ağılsızlıqdı! Bilmirəm, hər halda bir "ağıl problemi" var cəmiyyətdə. Onun daşıyıcıları kimlərdi, o haqda da Siz düşünün!

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması ölkə iqtisadiyyatına nə qazandıracaq?

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası ölkəmizin iqtisadi inkişafına və siyasi nüfuzunun artmasına çox böyük töhfə verəcək

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.

Prezident İlham Əliyev Zəngilan rayonuna səfəri zamanı işğaldan azad edilmiş digər rayonlar kimi Zəngilanın da məskunlaşmasının tezliklə başlayacağını, burada yeni, müasir infrastruktur qurulacağını, ekoloji təmiz bölgə yaradılacağını, innovativ iqtisadiyyat yaradılacağını bəyan edib. Ümumiyyətlə, Prezidentin işğaldan azad olunmuş rayonlara səfəri zamanı bu ərazilərin necə qurulacağı barədə anonslar verilib. Bəs ölkəmizin 2 böyük iqtisadi rayonunun - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkə iqtisadiyyatına qoşulması ilə nələr baş verəcək? Yazımızda bu məsələləri təhlil etməyə çalışacağıq.

Müharibədən keçən 1 il ərzində ərazinin minalardan təmizlənməsi işləri sürətlənib, elektrik, su, qaz xətlərinin, avtomobil və dəmiryolunun çəkilməsi işləri sürətlə davam edir. Füzulidə beynəlxalq aeroportun tikilməsi, daha 2 aeroportun tikiləcəyi anonsu, Bakı-Naxçıvan dəmiryolunun dağıdılmış hissələrinin sürətlə bərpası işləri, parallel olaraq eyni marşrut üzrə avtomobil yolunun çəkilməsi işləri, Füzuli-Şuşa avtomobil yolunun tikilməsi, ərazidəki şəhər və kəndlərə elektrik, qaz, su, telefon, internet xətlərinin çəkilməsi, aqrar sahədə məhsul yığımının təşkili və bu kimi işlər göstərir ki, tezliklə bu ərazidə böyük canlanma yaranacaq.



Hazırda azad edilmiş şəhər və kəndlərin baş planları hazırlanır və tezliklə layihə üzrə böyük bərpa işlərinə başlanacaq. Ağıllı şəhər və kəndlərin tikiləcəyi, meşələrin və yaşıllıq sahələrinin salınacağı bu bölgə təmiz ekoloji region kimi dünyada tanınacaq. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının tezliklə ölkəmizin ən inkişaf etmiş regonlarına çevriləcəyinə şübhə yoxdur. Bunun üçün həm təbii-coğrafi, həm insan resursu, həm iqtisadi-maliyyə imkanları yetərincədir. Ərazilərin bərpasında xarici kapitalın da iştirakı nəzərdə tutulub. Artıq bir sıra ölkələr buraya investisiya qoyacağını bildirib.

Azad edilmiş zonalara qayıdacaq azı yarım milyon məcburi köçkün var və onların yaxın bir neçə il ərzində tədricən və mərhələli şəkildə bu ərazilərdə məskunlaşacağı gözlənilir. Burada yaşayanlara dövlət tərəfindən ev, torpaq sahəsi veriləcək, sahibkarlıq fəaliyyəti üçün güzəştli kreditlər və sair xüsusi güzəştlər tətbiq ediləcək.

Özünüməşulluq proqranmının bu ərazilərdə geniş tətbiq olunması da burada yaşayacaq insanların işlə təminatı və məhsul istehsalının artmasına səbəb olacaq. Nəticədə burada iqtisadi fəallıq artacaq, sosial rifah yükləsəcək. Yekun olaraq bütün bu işlər ölkəmizin qeyri-neft sektorunun payının artmasına gətirib çıxaracaq.

Bu da özünü növbəti illərdə ÜDM-in artımında, büdcə gəlirlərinin çoxalmasında, o cümlədən büdcə gəlirlərində qeyri-neft sektorunun payının artmasında, xeyli sayda yeni iş yerlərinin yaranmasında göstərəcək.

Cənab Prezident hələ 17 il əvvəl Nazirlər Kabinetinin iclasında çıxış edərkən ölkə iqtisadiyyatının neftdən asılılığına son qoyulmasının əsas hədəf olduğunu qeyd edərək belə demişdi: "Neft faktoru ölkəmizin iqtisadiyyatında böyük rol oynayacaq. Ancaq biz iqtisadi siyasətimizi elə qurmalıyıq ki, sanki Azərbaycanda neft yoxdur, daha doğrusu, Azərbaycan neft ölkəsi deyil".

Keçən 17 il göstərdi ki, bunlar sadəcə söz deyildi. Bu müddətdə sahibkarlığın dəstəklənməsi üçün dövlət ardıcıl olaraq işlər həyata keçirib. Sahibkarlara güzəştlər tətbiq edilib, bəzi sahələrdə vergilər ləğv edilib və ya azaldılıb. Güzəştli kreditlər, subsidiyalar, dövlət yardımları aqrar sektorda ciddi artımlara səbəb olub. Nəticədə, ölkədə on minlərlə yeni müəssisə açılıb, yüz minlərlə insan işlə təmin olunub, milyonlarla ton əlavə məhsul istehsal olunub. Bunun nəticəsidir ki, bu gün Ümumi Daxili Məhsulun tərkibində qeyri-neft sektorunun payı 70 faizə çatıb.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları, sahibkarlığın dəstəklənməsi ilə bağlı qəbul olunan qanun və qərarlar, yerli istehsalın həcminin artırılması üçün atılan addımlar buna gətirib çıxardı ki, qlobal maliyyə-iqtisadi böhranları zamanı və pandemiya dövründə Azərbaycan ciddi zərər çəkmədi. Hətta bu hökumətə imkan verdi ki, manatın məzənnəsini qoruyub saxlasın, baxmayaraq ki, bütün qonşu ölkələrin valyutası çox ciddi şəkildə dəyərini itirib.

Məhz qeyri-neft sektorunun bu həddə gəlib çatması nəticəsində bir neçə il əvvəl neftdən gələn gəlirlərin azalması fonunda dövlət büdcəsində yaranmış kəsiri lazımi qədər kompensasiya edə bildi və məhz bunun nəticəsində başqa ölkələrdən fərqli olaraq Azərbaycan dövlət büdcəsində sosial xərcləri bir manat da azaltmadı.

Bəs, bu strategiyanın işğaldan azad edilmiş iki iqtisadi rayonda tətbiqi ölkəmizə nə verəcək? Proqnozlarımızı qısa şəkildə oxucuların nəzərinə çatdırmaq istəyirik:

1. Qeyri-neft sektorunda sahibkarlıq subyektlərinin sayı xeyli artacaq ki, bu da əlavə iş yerləri və əlavə məhsul istehsalı deməkdir. Nəticədə ölkədə bolluq yaranacaq ki, bu da qiymətlərin ucuzlaşmasına səbəb olacaq.

2. Yeni istehsal və xidmət obyektlərinin açılması nəticəsində ümumdaxili məhsulun həcmi, dövlət büdcəsinin gəlirləri xeyli artacaq, strateji ehtiyatlar gələcək nəsillər üçün qorunub saxlanacaq.

3. Yerli istehsalın artması ölkəmizin ixracında qeyri-neft sektorunun payını artıracaq, idxaldan asılılıq daha da azalacaq.

4. İşğaldan azad edilmiş rayonların hesabına turizm, nəqliyyat-logistika və aqrar sektorda ciddi artımlar əldə olunacaq. Ölkənin su ehtiyatının 1/3-ni təşkil edən ərazinin su ehtiyatları digər rayonların da su təchizatında böyük töhfə olacaq.

5. Ölkədə əhalinin ərazilər üzrə demoqrafik balansı yaxşılaşacaq. Belə ki, Bakı, Gəncə, Sumqayıt, Mingəçevir kimi iri şəhərlərlə məskunlaşmış məcburi köçkünlər azad edilmiş ərazilərə qayıtdıqdan sonra, ölkə əhalisi ölkə ərazisi üzrə normal paylaşılmış olacaq və bu da şəhərlərin yükünü azaldacaq.

Zəngəzur Dəhlizinin açılması təkcə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üçün deyil, bütün ölkəmiz üçün xeyli dividentlər verəcək. Naxçıvanın blokadası götürülmüş olacaq, Türkiyə və Avropaya daha qısa yol əldə ediləcək, bu dəhlizin Böyük İpək Yoluna qoşulması ilə ölkəmiz tranzitdən xeyli gərli əldə edəcək, xarici ölkələrlə ticarət imkanları daha da artacaq.

Ümumiyyətlə, yaxın 5 ildə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası ilə Azərbaycan iqtisadi qüdrətini, buna müvafiq olaraq siyasi nüfuzunu daha da artıracaq. Ölkədə sosial rifah xeyli yüksələcək. Respublikamız dünyanın sosial və iqtisadi cəhətdən ən inkişaf etmiş ölkələrindən birinə çevriləcək.

Bu, əlbəttə, asan iş deyil, çox nəhəng iqtisadi-maliyyə təminatı, böyük zəhmət və vaxt, ən əsası düzgün idarətmə və düşünülmüş strategiyanın tətbiqini tələb edir. Dövlətimizin və xalqımızın bunun üçün həm lazımi imkanları, həm də iradəsi var. Bu o deməkdir ki, artıq Azərbaycanın dünyanın inkişaf etmiş qüdrətli dövlətlərindən birinə çevrilməsi üçün qarşıda heç bir problem qalmayıb.

Prezidentin sözləri ilə desək, artıq müharibə qələbə ilə bitib və indi qarşımızda böyük quruculuq işləri durur. Dövlət başçısı bununla bağlı öz qəti siyasi iradəsini ortaya qoyub və Azərbaycan ardıcıl olaraq bu hədəfə doğru irəliləyir. Tarix və təcrübə göstərdi ki, Prezident İlham Əliyev verdiyi sözlərin hamısını yerinə yetirir. Şübhə yoxdur ki, bu deyilənlərin də reallaşması tezliklə baş tutacaq.

Elçin Bayramlı

SON SƏHİFƏ
SƏS
22 oktyabr
2021-ci il

Ronaldodan emosional paylaşım: Biz sağıq! Biz insanıq!

"Mançester Yunayted"in ulduz futbolçusu Kriştiano Ronaldo UEFA Çempionlar Liqasının qrup mərhələsinin 3-cü turunda evdə "Atalanta"ya qalib gəldikləri oyunu (3:2) şərh edib.

Qol.az xəbər verir ki, o, matçdan sonra "İnstaqram" səhifəsində yazıb: "Bəli! Xəyallar Teatrı yanır. Biz sağıq! Biz insanıq. Birləşib, heç vaxt təslim olmayacağıq! Bu, "Old Trafford"dur!". Qeyd edək ki, Ronaldo sözügedən mayçda komandasının qələbə qolunun müəllifi olub.

Dəniz qumu: hər zərrəsində həyat var

Dəniz qumu orqanizm üçün günəş qədər faydalıdır. İslanmış dəniz suyunda gəzmək qan damarlarının genişlənməsinə və qan təzyiqinin sabitləşməsinə kömək edir. Eləcə də dəniz qumu yüksək tərləməni normaya salır. Qumun üzərinə uzanmaq ifraz olunan təri özünə çəkir.

AZƏRTAC xəbər verir ki, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-terapevti Taleh Abbasov deyib: "Xəzər qumu xırda hidroskopik şəkildə olduğuna görə faydası çox böyükdür. Mayeni çox güclü formada özünə çəkir. Dəniz qumunun tərkibində olan kvas günəş şüalarını dəriyə daha yaxşı ötürür, xırda kapilyarları genişləndirir, tərləməni təmin edir və tərləmə ilə birlikdə toksiki maddələrin xaric olmasına kömək edir".

İsti qum revmatizm xəstəliyi zamanı müsbət təsir göstərir. Dənizdən müəyyən miqdarda qum götürüb isidərək oynaqlardakı nahiyələri örtmək məsləhətdir. Yarım saatdan sonra onu ilıq su ilə yuyub iki saat istirahət etmək çox yaxşı nəticələr verir. "Həmin proseduru günortadan sonra etmək daha məsləhətlidir, çünki günəş şüaları qumu qızdırıb maksimum temperatura çatdırır və müalicəvi təsiri daha da artmış olur", -deyə həkim-terapevt bildirib.

Dəniz qumu hətta miqren xəstəliyinin müalicəsi üçün də faydalıdır. Lakin isti qumu bütün hallarda xeyirli hesab edib saatlarla qumdan çıxmamaq da olmaz, çünki onun zərərli cəhətləri də var. Məsələn, təzyiq, şəkər, ürək xəstəliyi olanların ayaqlarını quma basdırması tövsiyə olunmur.

14 yaşlı qatil 5 yaşlı uşağı öldürüb

Böyük Britaniyanın Uels şəhərində 14 yaşlı bir uşaq çay kənarında cəsəd tapıldıqdan sonra günahkar elan edilib. Cəsədin 5 yaşlı Loqan Mvanqinin olduğu ortaya çıxıb. SİA xarici mətbuata istinadən bildirir ki, Cənubi Uels polisi Oqmor çayında tapılan 5 yaşlı Loqna Mvanqinin qatilinin 14 yaşlı bir gənc olduğunu açıqlayıb.

Qatilin əvvəllər də ədalət mühakiməsini pozmaqda günahkar olduğu bildirilib. Anası və ögey atası da Mvanqi cinayəti ilə əlaqədar ittiham olunub.

İyulun 31-də saat 17:45-də itkin düşən 5 yaşlı Loqanın cəsədi elə həmin gün Oqmor çayından çıxarılıb. Polis evi çaya çox yaxın olan 14 yaşlı yeniyetməni Loqanın qatili olaraq təyin edib.

Dostları və ailəsi tərəfindən "çox şirin və ağıllı" kimi təsvir edilən Loqan böyük kədərlə xatırlanıb.

Abutel İlhamqızı

Bu türk müğənni bir gündə 40 min TL qazanır.

Türkiyənin "Kanal D" kanalında yayımlanan "2. Səhifə" proqramının qonağı olan türkiyəli məşhur müğənni Ebru Polat gündəlik qazancını efirdə açıqlayıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, müğənni öz kosmetik markasından danışıb. 1 gündə 40 min TL qazandığını söyləyən Ebru Polat "Çox çalışıram, çox səy göstərirəm" deyib.

Aytac Əliyeva

Kivinin indiyədək bilinməyən xeyirləri BUNLARDIR

Kivi çox yüksək antioksidant təsiri olan qidalardan biridir. Bu təsiri ilə hüceyrələri zədələnmədən qoruyur və yaraların sağalma prosesini sürətləndirir. SİA xarici mətbuata istinadən bildirir ki, tərkibində C vitamini olan kivi eyni zamanda özündə bol miqdarda dieta lifi ehtiva edir. Yüksək lif və aşağı karbohidrat tərkibi ilə xolesterolu və qan şəkərini idarə etməyə kömək edir. Kivinin tərkibində olan aktinidin adlı ferment həzm prosesini asanlaşdıran zülalları parçalamağa kömək edir. Beləliklə, bağırsaq hərəkətlərini artıraraq qəbizliyin qarşısını alır.

Klinik tədqiqatları nəzərə alaraq kivi gündəlik bağırsaq hərəkətlərinin tezliyinin artması, qarın ağrısı və mədə qazı şikayətlərinin aradan qaldırılması ilə çox diqqət çəkir. Kivi meyvəsi dəstəkləyici qida kimi istifadə edilir. İçindəki aktinidin sayəsində bu təsiri təmin edən kivi qida rasionumuza mütləq daxil edilməlidir.

Abutel İlhamqızı

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600